www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-26 aprel 2015-ci il Şənbə № 88 (6116) Qiyməti 40 qəpik

Xəbər

## Pirşağıda evdə kişi və qadının asılmış meyiti tapıldı

yazısı səh.2-də

Gündəm



### Nərgiz Yaqublu bu gün torpağa tapşırılacaq

Dəfn mərasimi Qaraçuxur qəbiristanlığında olacaq; mərhumun atası Tofiq Yaqublu qızının hüzr mərasimində iştirak etmək üçün 7 günlüyünə azadlığa buraxılıb

yazısı səh.3-də

### Bayıl qəsəbəsinə Nuru Paşanın adı verilməsi təklif olundu

yazısı səh.2-də

### Tofiq Yaqublunun əfvi üçün prezidentə müraciət olundu

yazısı səh.3-də

### Türkiyədə möhtəşəm Çanaqqala zirvəsi

yazısı səh.4-də

### Mərakeş səfiri "Khazar İslands"da oldu

yazısı səh.5-də

### "Avropa" otelindəki qətlin yeni sensasion təfərrüatları

yazısı səh.10-da

### Müsavatda "erməni soyqırımı" müzakirə edildi

yazısı səh.6-da

### İşğalçı Rusiyaya "qamçı", işğalçı Ermənistana "kökə..."

yazısı səh.13-də

### Azərbaycan Kürdləri İctimai Birliyi erməniləri kürd düşməni elan etdi

yazısı səh.12-də

### Redaktorlardan Bəxtiyar Sadıqova cavab gəldi

yazısı səh.11-də

### Bakıda "avtoş"luq edən hakimə 30 sutka həbs verildi

yazısı səh.14-də

### Hegemon dövlətlərin boğaz davası

yazısı səh.15-də

## Sabiq-vitse primyer Azərbaycandan necə qazanır...

# ABBAS ABBASOVUN DAŞKƏSƏNDƏ QOYUN SÜRÜLƏRİ TAPILDI - ÖZƏL XƏBƏR

Hər gün 50-60 qoyun kəsilərək, Gəncə-Moskva təyyarəsi ilə Rusiya paytaxtına göndərilir və buradan onun restoranlarına paylaşdırılır; icra hakimiyyətlərinə tapşırılıb ki, oliqarxların heyvan sürülərini harada saxlaması barədə ən müfəssəl məlumatlar hazırlasınlar...




yazısı səh.5-də

## İqtisadi böhran iki naziri xoşbəxt edə bilər

Fazil Məmmədovla Samir Şərifovun maliyyə proseslərində önə çıxmaları, əlavə səlahiyyət əldə etmələri onların siyasi perspektivinə müsbət təsir göstərə bilər - baş nazirlik uğrunda iki məmurun arasında yarış başlayır

yazısı səh.8-də



*"A.M.A.Y. Abdulla":*

### "Boynuma xalta salıb meymun kimi gəzdirirlər, dözə bilmirəm"

yazısı səh.10-da



*Arif Hacılı:*

### "Putinin Ermənistana səfəri Azərbaycan ərazilərinin işğalına haqq qazandırır"

yazısı səh.9-da



### Jirinovskidən ermənilərə qarşı sərt bəyanat

yazısı səh.2-də




# AŞPA binası qarşısında erməni yalanlarına qarşı aksiya keçirildi

**Aprelin 24-də Fransanın Strasburq şəhərində Avropa Şurası Parlament Assambleyasının qarşısında erməni yalanlarına qarşı flaşmob aksiya keçirilib. Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidov bir qrup azərbaycanlı ilə birlikdə AŞPA binası qarşısında səssiz aksiya keçirərək, kəlbəcərli əsirlər Dilqəm Əsgərov və Şahbaz Quliyevə azadlıq tələb edib və avropalı deputatların diqqətini Xocalı qoyqırımına yönəldib.**

AŞPA-nın Yaz Sessiyasından çıxan avropalı deputatlar Əhməd Şahidovun bu aksiyasını izləyib və fotolarını çəkiblər. Ermənistan nümayəndə heyəti də azərbaycanlı aksiyaçılara yaxınlaşaraq, erməni dilində nəsə danışmış və Əhməd Şahidovun fotolarını çəkiblər.

# QHT Şurasının Apelyasiya Komissiyasının iclası keçirilib



**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Dəstəyi Şurasının Apelyasiya Komissiyasının iclası keçirilib. Şura üzvü, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədovun sədrliyi ilə keçirilən iclasda 2015-ci il birinci maliyyə müsabiqəsinin nəticələri ilə razılaşmayan 10 QHT-nin ərizəsinə baxılıb.**

Komissiya üzvləri - Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov, Şura üzvü Vüqar Qədirov və Katibliyin baş məsləhətçisi Fərid Rüstəmov müvafiq ekspert rəylərini müraciət etmiş QHT-lərin rəhbərlərinin diqqətinə çatdırıb. Apelyasiya komissiyasına müraciət etmiş təşkilatlar aşağıdakılardır:

1.İnternyus Azərbaycan İctimai Birliyi
2.Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyi
3.Milli Mədəniyyətin Təbliği İctimai Birliyi
4.Ahıl Ziyalılara Qayğı İctimai Birliyi
5.Azərbaycan Yeni Nəsil Hüquqşünaslar Asosiasiyası İctimai Birliyi
6.Məcburi Köçkün Qadınlar İctimai Birliyi
7.“Dünya” Ana və Uşaqlar İctimai Birliyi
8.Azərbaycan Respublikası Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyi
9.Azərbaycan Risk Peşəkarları Assosiasiyası
10.Azərbaycanın Yaradıcı Ziyalıları İctimai Birliyi

Qarşılıqlı anlaşma və diskussiya şəraitində keçən müzakirələrdə komissiyaya təqdim olunmuş hər bir layihə yenidən nəzərdən keçirilərək onların hazırlanmasında yol verilmiş nöqsanlar QHT rəhbərlərinin diqqətinə çatdırılıb. Layihələrin maliyələşdirilməsindən imtinanın əsas səbəbi kimi müsabiqə qayda və şərtləri ilə uyğunsuzluqlar və bəzi təşkilatların hüquqi sənədlərindəki nöqsanlar olub.

Geniş müzakirələrdən sonra Apelyasiya Komissiyası müraciət edən QHT-lərin təqdim etdikləri layihələrin maliyələşdirilməsi haqqında Şuranın qərarını qüvvədə saxlayıb və hər bir şikayət üzrə ayrılıqda qərar qəbul edib.

Komissiya üzvləri layihələr üzrə yerinə yetirilməli olan fəaliyyətlərin ictimai baxımdan aktual və konkretliyinin vacibliyini QHT nümayəndələrinin diqqətinə çatdırıblar. İclasda Şura tərəfindən layihələrin qiymətləndirilməsində şəffaflığın təmin olunması üçün mütəmadi iş aparıldığı da vurğulanıb.

## “Elm” tədris mərkəzi
**MAGIC LANGUAGES**
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Rusiya Azərbaycanı və daha 5 ölkəni hədələdi

**Rəsmi Moskva gələn ay Latviyanın paytaxtı Riqada keçiriləcək “Şərq tərəfdaşlığı” sammitinə qatılmaq istəyən ölkələri hədələyib.**



Virtualaz.org saytı “İnterfaks”a istinadən xəbər verir ki, Rusiya XİN-in rəsmi nümayəndəsi Aleksandr Lukaşeviç belə bəyanatla çıxış edib.

Aleksandr Lukaşeviç bildirib ki, Moskva “Şərq tərəfdaşlığı”nın may ayında Riqada keçiriləcək sammitini anti-Rusiya aktı hesab edir və buna “kifayət qədər sərt, prinsipial” reaksiya verəcək.

Riqa sammitinə Avropa İttifaqının “Şərq tərəfdaşlığı” təşəbbüsünə qoşulan Azərbaycan, Ukrayna, Moldova, Gürcüstan və Ermənistan prezidentləri dəvət olunub. Belarus prezidentinin də sammitə dəvət alacağı gözlənilir.

Diplomat əlavə edib ki, rəsmi Moskva sammitə “olduqca mənfi” yanaşır, bununla belə Rusiya XİN sammitin gedişini izləyəcək.

Lakin artıq aydındır ki, bizim mövqeyimiz kifayət qədər sərt və prinsipial olacaq. Çünki biz görürük ki, bu tərəfdaşlıq hara gedir və bu proqramın iştirakçılarının, hər şeydən əvvəl Avropa İttifaqının mövqeləri nəzərə alınmaqla kənardan hansı çalarlar kəsb edir"- deyə Lukaşeviç bildirib.

“Şərq tərəfdaşlığı” proqramına əsasən bu təşəbbüsə daxil olan keçmiş sovet respublikaları islahatlar aparmaqla Avropa İttifaqı ilə inteqrasiya əlaqələrini inkişaf etdirə biləcəklər. Moskva bu təşəbbüsə əvvəldən mənfi yanaşır, lakin reaksiyası heç vaxt indiki kimi sərt olmamışdı. Rusiya XİN-in bəyanatı təşəbbüsünə qoşulan ölkələrə faktiki olaraq xəbərdarlıqdır və Riqa sammitini pozmağa hesablanıb.

Ukraynanı parçalayan müharibənin baiskarı da məhz “Şərq tərəfdaşlığı” proqramı oldu. Ukrayna prezidenti Viktor Yanukoviç Rusiyanın təzyiqləri qarşısında bu proqram çərçivəsində Avropa İttifaqı ilə Assosiasiya sazişini imzalamağı təxirə salmalı olanda dərhal Kiyevdə qərbpərəstlər küçələrə çıxdı və Yanukoviç Brüsselin, Vaşinqtonun yaxın dəstəyi ilə bir neçə ay sonra devrildi.

Hələlik Assosiasiya sazişini ancaq Gürcüstan və Moldova imzalayıb. Və son məlumatlara görə, Rusiya Moldovada Avropa tərəfdarlarının mövqelərini xeyli zəifləyib və bu kasıb ölkəyə qarşı hibrid müharibə taktikasının bir neçə elementindən istifadə edir.

Azərbaycana gəldikdə isə rəsmi Bakı “Şərq tərəfdaşlığı” təşəbbüsünə dair əvvəldən öz mövqeyini formalaşdırıb. Azərbaycan Avropa İttifaqı ilə Assosiasiya sazişində maraqlı deyil, ancaq ikitərəfli üstün tərəfdaşlıq modelini təklif edir.

**Şübhəsiz ki, bu mövqeyin də Rusiyanın xoşuna gəldiyini demək olmaz. İndi rəsmi Moskvanın Riqa sammitinə qarşı bu cür sərt bəyanatından sonra Azərbaycanın sammitdə yüksək səviyyədə iştirakının baş tutub-tutmayacağını gözləmək lazımdır. Çünki Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərini hansısa avantürist inteqrasiya təşəbbüslərinə görə gərginləşdirmək niyyətində deyil.**

# “Bayıl qəsəbəsinə Nuru Paşanın adı verilsin”

## İctimai təşkilat təkliflərlə çıxış edib…

**“Məram” İctimai Birliyi təkliflərlə çıxış edib. Birlik Səbayel rayonun Bayıl qəsəbəsinə Nuru Paşanın və ya bütövlükdə “Şanlı ordu”nun adı verilməsini təklif edib. Bundan başqa, təklifdə qeyd olunur ki, qəsəbənin giriş hissəsində tarixi hadisələrin ruhuna uyğun olaraq “Triumfal arka” inşa olunsun.**

“Məram” təşəbbüsünü belə əsaslandırıb: “Məlumdur ki, Nuru Paşanın şanlı Qafqaz (müsəlman-türk) ordusu zəfərinə zəfər qataraq, 1918-ci ilin sentyabrında Azərbaycan Cümhuriyyətinin paytaxtı Bakıya Bayıl istiqamətindən daxil olub və xalqımıza, onun istiqlalına qənim kəsilmiş qüvvələrin vəhşiliklərinə son qoyub. Məhz bu tarixi qələbədən - Bakı azad edildikdən sonra Cümhuriyyətimizin milli hökuməti Gəncədən Bakıya köçüb”.

Birlik hesab edir ki, Səbayel rayonu ərazisində, məsələn, Dağüstü parkda Şərq-Azərbaycan memarlıq üslubunun elementlərini özündə əks etdirən, böyük sütunlarla əhatə olunmuş və şəhərin əksər yerindən görünə bilən bina-muzey də ucaldıla bilər.

Qurumun digər təklifi bütövlükdə Səbayel rayonunun adı ilə bağlıdır. Belə ki, birlik bu rayona Heydər Əliyevin adının verilməsini təklif edib. Təkliflərlə bağlı dəstək üçün isə ölkə prezidentinə, ictimaiyyətə müraciət ünvanlayıb.

❑ NURLAN

# Dövlət Departamenti İntiqam Əliyevi azad etməyə çağırıb

**“Biz aprelin 22-də Azərbaycan məhkəməsinin hüquqşünas İntiqam Əliyevi şübhəli ittihamlarla 7 il 6 ay azadlıqdan məhrum etməsindən və vəzifə tutmasına 3 illik qadağa qoymasından narahatıq”. Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsünün vəzifəsini icra edən Marei Harf bildirib.**

“Ölkənin ən tanınmış insan haqları müdafiəçilərindən olan, Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri Əliyev Azərbaycanda hüququn aliliyi və dinc fəalların müdafiəsi üçün çox işlər görüb. O, Avropa İnsan Haqları Məhkəməsinə yüzlərlə iş göndərib və çoxunda qələbə qazanıb”,- o qeyd edib.

“Biz Azərbaycan hökumətini İntiqam Əliyevi və fundamental azadlıqlardan istifadəyə görə həbs edilmiş digər fəalları azad etməyə çağırırıq. Biz həmçinin Azərbaycan hökumətini beynəlxalq sazişlər çərçivəsində götürdüyü öhdəliklərə uyğun olaraq vətəndaşlarının hüquqlarını təmin etməyə çağırırıq”, - Marie Harf vurğulayıb.

Öz növbəsində, Dövlət Departamentinin bəyanatını Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev şərh edərkən bilidirib ki, İntiqam Əliyevin həbsinin insan hüquqları müdafiəsi ilə hər hansı əlaqəsi yoxdur.

“İntiqam Əliyev vergidən yayınmaq və digər qanunazidd əməllərinə görə ittiham olunub, qanunun aliliyinin ifadəsi kimi məhkəmənin qərarı ilə bu cinayət təsbit olunub. Bunun insan hüquqları fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur”.

H.Hacıyev hesab edir ki, peşəkar fəaliyyətinə və siyasi mənsubiyyətinə görə Azərbaycanda heç kim təqib olunmur.

“Görünür ki, digər ölkələrdən fərqli olaraq, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda qəbul olunan hər bir məhkəmə qərarı böyük diqqətlə izlənilir. Bu minvalla davam etdiyi təqdirdə ABŞ Dövlət Departamentinin Azərbaycanda açılan hər bir cinayət işinə münasibət bildirməsini gözləmək olar”, - o qeyd edib.

Aprelin 22-də Bakı Ağır Cinayətlər Məhkəməsi İntiqam Əliyevi 7 il 6 ay həbsə məhkum edib.

# Pirşağıda evdə kişi və qadının asılmış meyiti tapıldı

**Bakıda bir evdə iki meyit aşkarlanıb. Hadisə Pirşağı qəsəbəsi, 2-ci Sovxozda, ünvansız tikilidə qeydə alınıb. Həmin ünvanda iki nəfər asılmış vəziyyətdə tapılıb. Hadisə yerinə polis və prokurorluq əməkdaşları gəlib. Hazırda araşdırmalar davam etdirilir. Sabunçu Rayon Prokurorluğundan APA-ya bildirilib ki, meyitləri tapılmış şəxslərin adları artıq müəyyənləşib.**

Araşdırmalar zamanı məlum olub ki, onlar Masallı rayon sakini, 1975-ci il təvəllüdlü Rəna Vaqif qızı Əsgərova və Qubadlı rayon sakini, 1988-ci il təvəllüdlü Razim Rahid oğlu Telmanzadədir. Adıçəkilən şəxslərin intihar edib-etmədiyi araşdırılır.



# Jirinovskidən ermənilərə qarşı sərt bəyanat

**Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski gözlənilmədən ermənilərə qarşı sərt bəyanatla çıxış edib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, Dövlət Dumasının bu gün keçirilən iclasında çıxış edən rusiyalı siyasətçi bildirib ki, parlamentin uydurma “erməni soyqırımı”nın 100-cü ildönümü ilə bağlı qəbul etdiyi bəyanatda ermənilərin “qardaş xalq” kimi ifadə edilməsi düzgün deyil: “Nəyə həsr olunub bu bəyanat? Kimsə baş sağlığı haqqında deyir. Lakin baş sağlığını yalnız fiziki şəxs öləndə vermək olar. Burda söhbət 100 il bundan əvvəl baş verən hadisələrdən gedir. Qardaş Ermənistan haqqında yazmağa da heç bir əsas görmürəm. Ona görə ki, qardaş ölkə və qardaş xalq olmur. Ukrayna xalqının simasında biz bunu gördük. Ukraynadakı və Rusiyadakı ruslar nəyinki qardaş olmadılar, əksinə, onlar hətta düşmənə çevrildilər”.**

Vladimir Jirinovski 1991-ci ildə ən çox rusun məhz Ermənistandan qovulduğunu xatırladıb: “Bu gün Ermənistan ən monoetnik (təkmillətli) respublikadır. Hər yerdə rus və digər xalqların nümayəndələri var, bircə Ermənistandan başqa. Mən inanmıram ki, bizim Ermənistanla yaxşı münasibətlərimiz olardı, əgər qonşuları tərəfindən ona qarşı təhlükə olmasaydı. Ermənistanı Finlandiya tərəfdə yerləşdirin, görün orada necə anti-Rusiya əhval-ruhiyyəsi olur. Ona görə də əsas məsələ coğrafiyadadır, kimin kiməsə qardaş olmasında deyil”.

# FHN rəhbəri Niderland və Belçikada səfərdə olub

**Aprelin 22-23-də FHN rəhbəri Kəmaləddin Heydərov Belçika və Niderlandda səfərdə olub. FHN-in saytında yer alan məlumata görə, səfərin ilk günü Heydərov Niderland Krallığının infrastruktur və ətraf mühit naziri xanım Melani Şults van Haegen ilə görüşüb.**

Daha sonra Heydərov Hagestein şəhəri yaxınlığındakı şlüz və sədd kompleksi ilə tanış olub.

Növbəti gün Heydərov Brüsseldə Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) Mənzil Qərargahında rəsmi səfərdə olub, Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay, təşkilatın Baş katibinin Əməliyyatlar üzrə müavini Stefen Evans və Baş katibin birinci müavini Aleksandr Verşbou ilə görüşlər keçirib.

Görüşlərdə ikitərəfli münasibətlərin və NATO qurumları ilə Azərbaycan FHN arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub.

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015

# Nərgiz Yaqublu bu gün torpağa tapşırılacaq

## Dəfn mərasimi Qaraçuxur qəbiristanlığında olacaq; mərhumun atası Tofiq Yaqublu qızının hüzr mərasimində iştirak etmək üçün 7 günlüyünə azadlığa buraxılıb

**Xəbər verdiyimiz kimi, "Yeni Müsavat" qəzetinin köşə yazarı, vicdan məhbusu Tofiq Yaqublunun qızı Nərgiz Yaqublu aprelin 23-də səhər saatlarında Rusiyanın Tomsk şəhərində, müalicə olunduğu xəstəxanada vəfat edib. O, xeyli müddət idi ki, yoluxduğu ağır xəstəlikdən Hepatitdən müalicə olunurdu.**



Son günlərdə komaya düşən mərhumun durumu kritik vəziyyətdə idi. Nərgiz Yaqublu həm də 7 aylıq hamilə idi. Mərhumun ölümündən sonra Tofiq Yaqublunun Qaraçuxur qəsəbəsindəki ata evinə insan axını başlayıb. Dünən səhər saatlarından başlayan hüzr mərasimində ölkəmizin tanınmış simaları - MSDM-nin sədri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, Milli Şuranın sədri Cəmil Həsənli, AXCP lideri Əli Kərimli, Ümid Partiyasının sədri İqbal Ağazadə və partiya fəalları, mərhumun əqidədaşları iştirak ediblər. Mərasimdə iştirak edənlər Yaqublular ailəsinin kədərini bölüşərək, mərhumun yaxınlarına başsağlığı veriblər.

**Qızının yas mərasiminə Tofiq Yaqublu dünən saat 16:00 radələrindən sonra qatılıb.** Belə ki, vicdan məhbusunun aprelin 23-də günorta saatlarında 7 günlüyünə azadlığa buraxılacağı deyilsə də, məlum olmayan səbəblər ucbatından uzadılıb. Mərasimdə iştirak edənlər mərhumun atasına başsağlığı vermək, dərdinə şərik olmaq üçün onu gələnə qədər gözləyiblər. Başqan müavinini evinin qarşısında əzizləri və dostları qarşılayıb. Qarşılama zaman duyğusal anlar yaşanıb, onu qarşılayanlar övlad itkisinə məruz qalmış Tofiq Yaqublunu ovundurmağa çalışıblar. Onun göz yaşları, "Nərgizim hanı?", "Onu mənə verin!" kimi kədərli sözləri hər kəsi qəhərə boğub. Evində yaxınları ilə görüşdükdən sonra T.Yaqublu qızı üçün qurulan yas çadırına gəlib. Bütün mərasim iştirakçıları ilə bir-bir görüşən vicdan məhbusu hər kəsə öz minnətdarlığını bildirib.







Qeyd edək ki, mərhumun cənazəsi aprelin 24-də gecə saatlarında Bakıya gətiriləcək. Dəfn mərasimi bu gün - aprelin 25-də saat 13:00-da olacaq. Mərhumun nəşi Tofiq Yaqublunun ata evindən götürülərək, Qaraçuxur qəsəbəsindəki qəbiristanlıqda torpağa tapşırılacaq...

Tofiq Yaqublu musavat.com-un müxbirinə deyib ki, qızının vəfat etməsi xəbərini ANS-in 23 aprel saat 15-dəki xəbər bülletenindən eşidib və şok yaşayıb. O zamana qədər T. Yaqubluya Nərgizin xəstələnməsi, buna görə də həyat yoldaşı Maya Yaqublunun qızının yanına getməsi barədə məlumat verilibmiş. Lakin vəziyyətin bu dərəcədə kritik olduğunu kimsə söyləyə bilməyib. Danışmağa çətinlik çəkən dərdli ata bu axşam hava limanına, qızı Nərgiz Yaqublunun cənazəsini qarşılamağa gedəcək.

Musavat.com bildirir ki, yazarımız, Müsavat başqanının müavini Tofiq Yaqublu penitensiar xidmətin mülki geyimli işçilərinin nəzarəti altındadır və onun hərəkəti məhdudlaşdırılıb. Lakin ona hava limanına gedərək, qızını qarşılamağa icazə verilib.

Türkiyədə fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyi də Nərgiz Yaqublunun vaxtsız vəfatı ilə bağlı başsağlığı açıqlaması yayıb: "Hələ həyatının bahar çağlarında olsa da ani bir rahatsızlıq sonucu yaşamını itirən Müsavat Partiyasının başqan müavini, hörmətli Tofiq Yaqublunun gənc qızı Nərgiz Yaqublunun vəfatından böyük bir təəssüflə xəbər tutmuş vəziyyətdəyik. Gənc yaşlarında itirdiyimiz, Müsavat Partiyasının və camiamızın övladı olan Nərgiz Yaqubluya Allahdan rəhmət diləркən, mücadilə adamı, cəsarətli insan Tofiq Yaqublunun acısını paylaşırıq, ailəsinə və Müsavat Partiyasına başsağlığı diləklərimizi çatdırırıq".

Mərhum ötən il ailə həyatı qurmuşdu. Rusiyada yaşayırdı. 25 yaşı var idi. Nərgiz Yaqubludan yeganə yadigar, yaşaması təhlükə altında olan 7 aylıq körpəsidir.

"Yeni Müsavat" ailəsi Nərgizin yaxınlarına, onu sevənlərə və xüsusilə də Tofiq Yaqubluya dərin hüznlə başsağlığı verir və səbir diləyir.

**Allah rəhmət eləsin!**

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**







# Tofiq Yaqublunun əfvi üçün prezidentə müraciət olundu

## İnsan Hüquqları üzrə Birgə İşçi Qrupa daxil olan hüquq müdafiəçiləri, deputatlar da siyasi məhbusun azadlığa buraxılmasını xahiş etdilər

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupu siyasi məhbus Tofiq Yaqublunun əfv olunması üçün prezident İlham Əliyevə müraciət edib. Bu haqda modern.az-a açıqlamasında işçi qrupunun üzvü, hüquq müdafiəçisi Səadət Bənanyarlı deyib. O, bildirib ki, Müsavat Partiyası başqanının həbsdəki müavini Tofiq Yaqublu üçün ayrıca müraciət edilib və Nərgiz Yaqublunun dünyasını dəyişməsi də müraciətə əlavə olunacaq: "Çox güman ki, Tofiq bəy yaxın zamanlarda azadlığa buraxılıb ailəsinə qovuşacaq".**

S.Bənənyarlı onu da qeyd edib ki, İşçi Qrupu mütəmadi olaraq fəaliyyətini davam etdirir: "Bütün ərizələrə baxılır və müzakirəyə çıxarılır. Çalışırıq ki, bizə daxil olan müraciətlərin hamısına baxıb, lazımi sənədləri əfv komissiyasına göndərək. Biz gözləyirik ki, may ayının sonunda əfv fərmanı veriləcək. Əfv sərəncamın verilməsi birbaşa prezidentin səlahiyyətindədir".

Səadət Bənanyarlı bu il əfvlə bağlı hazırladıqları siyahıda tanınmış məhkumlardan Tofiq Yaqublunun, İlqar Məmmədovun, Nemət Pənahlının, Əli İnsanovun, Akif Muradverdiyevin, "Nida"çı gənclərin və digər şəxslərin adlarının olduğunu vurğulayıb: "Monitorinq qrupu olaraq özümüzün də siyahımız var. Həmin siyahıda hüquqları pozulmuş qeyri-hökumət təşkilatlarının rəhbərlərinin, siyasi motivlərlə həbs olunmuş insanların və jurnalistlərin adları var. Ümid edirik ki, siyahıda olanların bir çoxu azadlığa buraxılacaq".

Birgə Qrupun üzvü Əliməmməd Nuriyev də Azadlıq Radiosuna bildirib ki, ideyanın təşəbbüskarı qrupun üzvlərindən biri Sahib Məmmədovdur: "Əfv haqda əsasnaməyə görə, qeyri-hökumət təşkilatları da kiminsə əfvi üçün müraciət edə bilərlər. Biz də belə bir humanist davranış nümayiş etdirmək istədik".

Qeyd edək ki, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da T.Yaqublunun əfv olunması üçün iki dəfə ölkə prezidentinə müraciət edib. Eyni zamanda, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası da eyni məzmunda İlham Əliyevə müraciət ünvanlayıb. Müraciətdə övladını itirən atanın əfvi istənilib: "Tofiq Yaqublu milli azadlıq hərəkatının öncüllərindən biri olub, eyni zamanda, Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib və təyin olunmuş cəzanın bir hissəsini çəkib".

Deputat Fazil Mustafa isə sosial şəbəkədə yazdığı statusunda bildirib ki, dəfələrlə Milli Məclisdə Qarabağ qazisi olan Tofiq Yaqublunun azadlığa buraxılması tələbini səsləndirsə də, bir nəticə əldə olunmayıb: "Ölkəyə dönən kimi bu məsələnin həlli istiqamətində yeni təşəbbüslə çıxış edəcəyəm".

**Xatırladaq ki, Tofiq Yaqublu 2013-cü il yanvarın 23-də İsmayıllı şəhərində baş vermiş hadisələrlə bağlı 5 il müddətinə azadlıqdan məhrum edilib. O, 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkir.**

**❑ RÖYA**

# Müsavat nekroloq yaydı

**Müsavat Partiyası gənc xanım üzvünün ölümü ilə bağlı nekroloq yayıb: "Müsavat Partiyasına ağır itki üz verib. Partiyanın gənc fəal üzvü, başqan müavini, Divan üzvü, siyasi və vicdan məhbusu Tofiq Yaqublunun qızı Nərgiz Yaqublu 25 yaşında vaxtsız vəfat edib.**

**N.Naqublu 2009-cu ildən Müsavat Partiyasına üzv olub. Partiya üzvü olduğu gündən müsavatçılıq ideyalarının yayılmasında, demokratik islahatlar uğrunda mübarizədə mühüm rol oynayıb. Azad və demokratik Azərbaycanın gerçəkləşməsi üçün bütün qüvvəsilə çalışıb. Özünün təmənasız fəaliyyəti və fədakarlığı ilə onu tanıyanların dərin hörmətini qazanıb.**

**Fədakar müsavatçı Nərgiz Yaqublu üzünü görə bilmədiyi körpəsinə nəvaziş belə göstərə bilmədi. Ana olmaq sevincini yaşamağı amansız tale ona imkan vermədi.**

**Onun əziz xatirəsi bütün Azərbaycan xalqının, müsavatçıların və onu tanıyanların qəlbində daim yaşayacaq.**

**Müsavat Partiyası Nərgiz Yaqublunun faciəli vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə, yaxınlarına və əqidədaşlarına, demokratiya və azadlıq uğrunda mübarizə aparan hər kəsə dərin hüznlə başsağlığı verir.**

**Sən həmişə bizimləsən, əzizimiz Nərgiz!**
**Allah rəhmət eləsin!".**

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015




# Türkiyədə möhtəşəm Çanaqqala zirvəsi

## Dünya dövlətləri seçimini etdi; 90 ölkə İstanbuldakı tədbirə qatıldı; Çanaqqala zəfərinin 100 illik törənləri ilə müqayisədə saxta soyqırım şouları kölgədə qaldı

**Türk dünyasının tarixində şərəfli səhifələrdən biri olan Çanaqqala zəfərinin 100-cü ildönümü münasibətilə Türkiyədə və Azərbaycanda silsilə tədbirlərə start verilib. Aprelin 23-ü və 24-də qardaş ölkədə möhtəşəm bayram törənləri keçirilib.**

**250 mindən artıq türk əsgərinin həyatı bahasına əldə olunmuş Çanaqqala zəfərinin qazanılmasında Azərbaycan döyüşçülərinin də iştirakı iki qardaş ölkənin bu qalibiyyət günündə də bir yerdə olmasını şərtləndirən əlavə bir mühüm faktordur.** Ümumilikdə Türkiyənin istilaçıların əsarətinə düşməməsini şərtləndirən, müstəqil dövlət olaraq mövcudluğunu təmin edən Çanaqqala qələbəsinin bir əsrlik yaşı dünyaya "Barış zirvəsi" kimi təqdim olunub və 25-ə yaxın dövlətin yüksək səviyyədə bu tədbirlərə qatılması Ankaranın növbəti mühüm uğuru kimi vurğulanır.

Türkiyə KİV xəbər verir ki, prezident Rəcəb Tayyib Ərdoğanın ev sahibliyi etdiyi mərasimdə 17 prezident, 3 parlament rəhbəri, 3 prezident yardımçısı, 5 baş nazir, 1 eks-prezident, 28 nazir olmaqla 90-a yaxın ölkədən yüksək vəzifəli şəxslər qatılıb.

**Çanaqqala Zəfərinin 100-cü il dönümü münasibətilə təşkil olunan rəsmi tədbirdə Ərdoğan, Azərbaycan prezidenti İlham Əliyev, İngiltərə şahzadəsi Çarlz, Əfqanıstan prezidentinin birinci müavini, general Raşid Dostum, İraq prezidenti Fuad Masum, Qatar Əmiri Tamim bin Hamad El Sani, Suriya Ulusal Koalisiyası başqanı Halid Hoca, Albaniya dövlət başçısı Bujar Nishani, Bosniya Hersoqovinirya Dövlət Şurasının sədri Mladen İvaniç, Cibuti prezidenti İsmail Ömer Guelleh, Çad prezidenti İdris Debi, Cənubi Sudan dövlət rəhbəri Salva Kiir Mayardit, İrlandiya prezidenti Michael D. Higgins, Qaradağ Prezidenti Filip Vujanoviç, KKTC prezidenti Derviş Eroğlu, Kosova dövlət başçısı Atifete Yahyaga, Makedoniya prezidenti Gjorge İvanov, Mali dövlət başçısı İbrahim Boubacar Keita, Nigeriya dövlət başçısı Mahamadou Issoufou, Pakistan prezidenti Memnun Hüseyin, Senegal rəhbəri Macky Sall, Sloveniya dövlət başçısı Borut Pahor, Somali Prezidenti Hasan Şeyh Mahmud və Türkmənistan prezidenti Qurbanqulu Berdimuhammədov və onlarla dövlət rəhbərləri və dövlət adamları iştrak edib.**

Tədbir Diyanət İşləri başqanının duası ilə başlayıb. Daha sonra İxtilaf dövlətləri adına ingilis şahzadə Çarlz, ardınca isə R.T.Ərdoğan çıxış edib. O bildirib ki, Çanaqqala savaşı bu savaşda iştirak etməyən xalqların da taleyinə təsir edib: "Bu savaşın dolayı təsir etdiyi xalqların təmsilçiləri də bu mərasimdə yer alır. Birinci Dünya Savaşının sarsıdıcı izləri hələ də qalmaqdadır. Bütün dünyaya barış mesajı vermək üçün Çanaqqalanın, Gelibolunun çox münasib yer olduğunu düşünürəm. Çünki bu savaşın özündə də humanist mesajlar olub". Ərdoğan deyib ki, 100 il əvvəl Geliboluda yaşanan savaş xalqların ortaq hafizəsində yer alıb: "Çanaqqala qələbəmizin simvolu olduğu qədər də böyük itkilərimizin olduğu bir məkandır. Ona görə də Çanaqqala ilə bağlı türkülər bu gün də yaşamaqdadır. Bu savaşda torpağa yüz minlərlə gəncin arzuları gömüldü. Bu savaşdakı gənclər əsgər olmaqla bərabər, həm də insan idilər, qarşılarındakıları həm də insan kimi gördülər. Bizim vəzifəmiz yeni savaşların yaşanmaması, gənclərin arzuları yerinə yetmədən məzara gömülmədən üzərimizə düşən vəzifəni yerinə yetirməkdir. Mən burada hər birimiz adından sülhün bütün dünyaya hakim olması üçün çalışmaq yönündə qərarlı olduğumuzu bir daha bəyan edirəm".





**Ərdoğan Çanaqqala savaşında iştirak etmiş Mustafa Kamal Atatürkün sözlərini xatırladıb:** "Atatürk deyib ki, bura bizimlə döyüşməyə gələnlər canlarını verdikdən sonra bizim övladlarımızdırlar. Yeni nəsillərə düşən vəzifə dostluq, sülh mesajına sahib çıxmaqdır. Yeni düşmənlər qazanmaq deyil, sülh mesajı baxımından Çanaqqalanın bütün xalqlara örnək olmasını istəyirik. Terrorizmin, irqçiliyin, islamafobiyanın çarəsi buradadır. Biz bu yüz ili barış yüz ilinə döndərmək üçün hər cür əməkdaşlığa hazırıq. Çanaqqalada savaşmış hər bir millətdən bütün qəhrəmanların önündə sayğı ilə baş əyirəm".



Qeyd edək ki, bayram münasibətilə hələ bir gün öncədən Ankarada Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün məzarı ziyarət olunub, Anıtqəbir önünə əklil qoyulub. Mərasimdə Türkiyənin dövlət və hökumət rəsmiləri, Böyük Millət Məclisinin üzvləri, Ankaradakı diplomatik korpusun rəhbərləri, xarici qonaqlar, ölkə ictimaiyyətinin görkəmli nümayəndələri, media mənsubları iştirak ediblər. Çanaqqala zəfərinin yüzüncü ildönümü münasibətilə İstanbulda Barış Zirvəsi təşkil olunub. **Zirvədə Azərbaycanı baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.** Nümayəndə heyətinə Milli Məclisin deputatları, görkəmli alimlər daxildir. Üç hissədən ibarət Zirvə çərçivəsində Birinci Dünya müharibəsi və Çanaqqala döyüşlərinə dair müxtəlif sərgilər təşkil olunub.

**24 apreldə isə R.T.Ərdoğan və qonaqlar türk şəhidliyini (Yarım milyondan çox itkinin olduğu bu savaşda 250 min türk həlak olub-E.P.) ziyarət edib, məzarların önünə çiçəklər düzüb, dualar oxuyublar.** Türkiyə prezidenti türk əsgərin şərəfinə ucaldılan abidənin qarşısında xatirə dəftərini imzalayıb. Türk şahzadəsi və prezident Ərdoğan barış mesajını vermək üçün birgə addımlayıblar, türk cocuqlarla söhbətləşiblər. Daha sonra Çanaqqala savaşı iştirakçısı olmuş dövlətlərə məxsus gəmilərin boğazdan keçidi və türk ulduzlarının möhtəşəm uçuşları izlənilib.

***

Türkiyə prezidenti Türkiyə ermənilərinin patriarx əvəzi Aram Atəşyana 1915-ci il hadisələrinin anım mərasimi ilə əlaqədar məktub göndərib. R.T.Ərdoğanın məktubu İstanbuldakı Məryəm Ana erməni kilsəsində keçirilən mərasimdə oxunub. Türkiyə prezidenti "dəyərli erməni vətəndaşlarım" deyə sözə başladığı məktubunda Birinci Dünya müharibəsi şərtlərində həyatını itirən bütün Osmanlı ermənilərini hörmətlə andığını, onların övladlarına və nəvələrinə başsağlığı verdiyini bildirib. Qeyd edək ki, erməni kilsəsində keçirilən mərasimdə Türkiyə hökumətini Avropa Birliyi naziri Volkan Bozkır təmsil edib.

***

ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik qondarma erməni soyqırımı ilə bağlı məsələyə münasibət bildirib. O, bu barədə özünün twitter hesabında yazıb: "Biz Dağlıq Qarabağa münaqişəsinin sülh yolu ilə həlli istiqamətində işləyirik. Buna görə də Osmanlı imperiyasının son günlərində baş verən əziyyətləri və qırğınları xatırlamaqla bütün qurbanlara yas tuturuq".

***

Dünya Türkiyədə möhtəşəm Çanaqqala tədbirlərinə şahidlik edərkən Ermənistanda qondarma "erməni genosidi"nin 100-cü ildönümü qeyd olunub. Anım mərasimlərində iştirak etmək üçün İrəvana yalnız Rusiya, Fransa, Serbiya və Yunan Kiprinin liderləri gəlib. Putin 1915-ci il hadisələrini "tarixdəki ən qorxunc faciə"lərdən biri adlandırıb və deyib ki, erməni xalqının acılarını ürəkdən paylaşır. Sitsernakaberd təpəsindəki çıxışı zamanı Putin deyb: "Bir milyon yarım insan öldürüldü, 600 mini aşan insan sürgün edildi. 1915-ci il hadisələri bütün dünyanı sarsıtdı. Milyonlarla insan Rusiyaya sığındı və xilas oldu. Rus diplomatiyası erməni xalqına yönələn cinayətin beynəlxalq tanınmasına yardım etdi. Rusiya, Fransa və Böyük Britaniya törədilənləri insanlığa qarşı cinayət olaraq xarakterizə etdi".

Putin sözünə davam edərək bildirib ki, Rusiyanın yüzlərlə şəhərində 2 mini aşan anım mərasimləri keçiriləcək. Bu mərasimlərə 3 milyondan artıq rus-erməni cəmiyyətinin nümayəndələri qatılacaq". Putin beynəlxalq biriyin bu cür faciələrin təkrar eolunmaması üçün hər şeyi etməli olduğunu bildirib.

**Türkiyənin baş naziri Əhməd Davudoğlu** Rusiya prezidenti Vladimir Putinin ermənilərə müraciətində "soyqırım" ifadəsindən istifadə etməsinə münasibət bildirib. APA-nın "Milliyet"ə istinadən verdiyi məlumata görə, Ə.Davudoğlu xarici işlər naziri Mövlud Çavuşoğlu ilə bu məsələni müzakirə etdiyini deyib: "Lazımi diplomatik addımlar atılacaq".

Ə.Davudoğlu Rusiya və Fransa prezidentlərinin Ermənistandakı tədbirlərə qatılmasının ATƏT-in Minsk Qrupunun tərəfsizliyinə kölgə saldığını söyləyib: "Türkiyədəki tədbirə neçə dövlət başçısı qatılır, Ermənistandakı tədbirə neçəsi qatılır, baxın. Onların tədbiri nifrət, öfkə, bizim tədbirimiz isə sülh zirvəsidir".

Almaniya prezidenti Yoahim Qauk Osmanlı imperiyasında 1915-ci il hadisələrini "erməni soyqırımı" adlandırıb. Alman prezident həmin hadisələrdə Almaniyanın qismən məsuliyyətini etiraf edib.

ABŞ prezidenti Barak Obama isə erməniləri peşman edib. O, 1915-ci ildə Osmanlı İmperiyasında baş verən hadisələrlə bağlı ənənəvi çıxışını edib. Ağ Ev rəhbəri qondarma erməni soyqırımı ilə əlaqədar etdiyi çıxışda ABŞ-ın bu barədə mövqeyinin dəyişmədiyini bildirib. Bununla belə, Barak Obama "soyqırımı" kəlməsindən istifadə etməyib...

Ümumilikdə isə Çanaqqala zəfərinin 100 illik törənləri ilə müqayisədə saxta soyqırım şouları xeyli kölgədə qalıb. Bu da onu göstərir ki, erməni lobbisi və onun havadarlarının bir əsrlik cəhdlərinə, vay-şüvən qoparmasına baxmayaraq, tarixi həqiqətləri ört-bastır etmək mümkün deyil.

***

**Qeyd edək ki, Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov** da qardaş ölkədədir. O, Türkiyənin milli müdafiə naziri İsmət Yılmazın dəvətilə Çanaqqala zəfərinin 100-cü ildönümü münasibətilə anım mərasimində iştirak edir. Tədbirdə iştirak edən dövlətlərin çələngləri mərasim keçirilən meydana gətirilib. Onların arasında Azərbaycanın da çələngi olub.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) rəhbərliyinə daxil olan şəxslər aprelin 24-də Bakının və Azərbaycanın digər ərazilərinin erməni hərbi birləşmələrindən azad edilməsi zamanı həlak olan türk əsgər və zabitlərinin xatirəsinə ucaldılmış abidəsini ziyarət ediblər. Müsavat Partiyası son anda Nərgiz Yaqublunun vaxtsız vəfatı ilə əlaqədar bayram ziyarətini təxirə salıb. VHP isə Bakının və digər rayonlarımızın azadlığı uğrunda şəhid olmuş 1310-dan artıq Türk şəhid əsgərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib. Sonra isə Qobustan (Şamaxı) rayonu ərazisində ermənilərlə döyüşdə qəhrəmancasına şəhid olmuş Türk zabitinin məzarı önündə ucaldılmış abidə ziyarət olunub.

**Milli Məclisin deputatı, BQP başqanı Fazil Mustafa** Çanaqqala törənləri ilə bağlı bunları bildirib: "Bu gün Türkiyədə 1915-ci il Çanaqqala Zəfərinin 100 illiyi bayram olaraq qeyd olunur. Könül istərdi ki, həmrəylik olaraq bunu Azərbaycanda da qeyd edək və yalançı erməni soyqırımına öz atəşlərimizi göndərək. Olsun, düşünən insanlar anlayırlar ki, bu, həm də bizim bayramımızdır. Modern dünyada türklərin zəfər çaldığı azsaylı möhtəşəm qəhrəmanlıq tarixidir. O gün donanmalarla, silahlarla türklərin üzərinə gələnlər, bu gün "soyqırım" qərarları ilə gəlirlər. Bu qərarları da Çanaqqalada yedikləri şapalaq kimi mütləq yeyəcəklər. Yetər ki, Çanaqqala imanına və ruhuna sahib bir millət ayaqda olsun. Qarabağı da belə bir iman və ruhla azad edə biləcəyik. Bu zəfərin mənasını dərk edən hər bir Vətən övladını tebrik edirəm. Dualarımız onlarladır, Vətən üçün şəhid olan bütün soydaşlarımızla..."

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015

## Sabiq-vitse primyer Azərbaycandan necə qazanır…

**Azərbaycanda oliqarx-məmurların əsasən qoyun sürüləri saxlaması sirr deyil. Hətta bu sürülər o qədər artıb ki, yay otlaq sahələrinin əhəmiyyətli hissəsi erməni işğalı altında olduğundan heyvanları otlaq sahələri ilə təmin etmək getdikcə çətinləşir. Ölkənin əksər yerlərində münbit örüş sahələri hasarlanıb və zəbt olunub.**

**Neftin qiymətinin düşməsindən sonra Azərbaycan hakimiyyəti kənd təsərrüfatının dirçəldilməsi, xüsusilə də boş qalan torpaq sahələrinin səmərəli istifadəsi üçün hərəkətə keçib.**



# Abbas Abbasovun Daşkəsəndə qoyun sürüləri tapıldı-özəl xəbər

### Sürülərdən hər gün 50-60 qoyun kəsilərək Gəncə-Moskva təyyarəsi ilə Rusiya paytaxtına göndərilir və buradan onun restoranlarına paylaşdırılır; icra hakimiyyətlərinə tapşırılıb ki, oliqarxların heyvan sürülərini harada saxlaması barədə ən müfəssəl məlumatlar hazırlasınlar…

Təsadüfi deyil ki, bu il həm də "Kənd Təsərrüfatı ili" elan olunub. Azərbaycan bazarlarında həm qıtlığın, həm də qiymət artımının qarşısının alınması üçün bölgələrdə boş qalan torpaq sahələrinin istifadəsi indi gündəmin əsas mövzularından birinə çevrilib.

Prezident Nazirlər Kabinetinin son iclasında da kənd təsərrüfatının inkişafı üçün yararlı torpaq sahələrinin səmərəli istifadəsi, eləcə də fermerlərə güzəştlərlə bağlı Kənd Təsərrüfatı və İqtisadi İnkişaf nazirliklərinə xüsusi tapşırıq verib.

Redaksiyamıza verilən məlumata görə, Kənd Təsərrüfatı Nazirliyi 15 gündür ki, dağlıq və aran rayonlarında xüsusi araşdırma başladıb. Çünki oliqarxların qoyun sürüləri əsasən, dağlıq və aran rayonlarında saxlanılır. İcra hakimiyyətlərinə tapşırılıb ki, oliqarxların, ümumiyyətlə məmur təbəqəsinin qoyun sürülərini harada saxlaması, sayı və konkret kimlərə məxsus olması barədə ən müfəssəl məlumatları yaxın 10 gündə onlara versinlər. Bəzi rayonlarda isə bu prosesə nazirliyin özü xüsusi komissiya göndərib və icra hakimiyyətlərində onlara otaq da ayrılıb.

Dağlıq rayonlardan birinin icra hakimiyyətinə yaxın mənbə redaksiyamıza deyib ki, xüsusi tapşırığın haradan gəldiyi məlumdur və artıq bununla bağlı oliqarx-məmurlar arasında da böyük bir təlaş da yaranıb. İlkin araşdırma zamanı o da məlum olub ki, oliqarxlar minlərlə qoyun saxlanılan bu cür fermaları ya yaxın rayonlarda yaşayan uzaq qohumlarının, bəziləri isə hətta "özünün bir toyuğu belə olmayan" Qarabağ müharibəsi əlillərinin adına rəsmiləşdiriblər. İcra başçıları da özlərini hakimiyyətin qəzəbindən qorumaq üçün oliqarx-məmurlara təxminən "gəlin sürünüzə yiyə durun" mesajını göndəriblər.

Hələ bir müddət əvvəl də belə xəbərlər vardı ki, bəzi varlılar sürülərini Dağıstana, Krasnodara, hətta Qırğızıstana göndərirlər. Bu oliqarxlar sırasında nəqliyyat naziri Ziya Məmmədovla yanaşı, "Azərenerji" prezidenti Etibar Pirverdiyev, eləcə də baş qoruman Bəylər Əyyubovun da adı çəkilirdi.

Məlumdur ki, Azərbaycanın bəzi iri oliqarxları Rusiyanın Krasnodar vilayətində yüz minlərlə hektar örüş sahəsi alıblar və orada böyük qoyun sürüləri saxlayırlar. Qırğızıstana gəldikdə isə bu ölkədə kifayət qədər münbit örüş sahələri tapmaq mümkündür. Bu ölkə ərazisinin 84 faizini otlaq sahələri və biçənəklər təşkil edir ki, bu da heyvandarlıq üçün münbit imkanlar yaradır. O da mümkündür ki, hakimiyyət daxilində baş verən prosesləri proqnozlaşdıra bilən oliqarxlar vaxtında bu kimi qabaqlayıcı tədbirlər görüblər...

Bu araşdırma hazırda davam edir və indi oliqarxlar özlərinə yeni örüş sahələri axtarmaqdadırlar.

Amma araşdırma daha bir sensasion faktı üzə çıxarıb. Məlum olub ki, baş nazirin sabiq birinci müavini, Azərbaycan hakimiyyəti ilə münasibətləri sonda bəlkə də həbs ilə nöqtələnəcək Abbas Abbasovun da iri sürüləri varmış...

Məlumatı redaksiyamıza verən mənbə deyib ki, sabiq vitse-primyerin quyun sürüsünü Daşkəsəndə saxladığı məlum olub. Xəbərdə deyilir ki, ümumiyyətlə, bu rayonda oliqarx-məmurların qoyun sürüləri çoxdur və araşdırmalar burada daha ciddi aparılır. Mənbə deyib ki, Abbas Abbasovun sürülərindən hər gün 50-60 qoyun kəsilərək Gəncəyə, oradan isə Gəncə-Moskva təyyarəsi ilə Rusiya paytaxtına göndərilir. Buradan isə Abbas Abbasovun Moskvadakı restoranlarına paylaşdırılır. Qaynağımız iddia edir ki, faktın indiyədək üzə çıxmaması Bakıda qəzəblə qarşılanıb. Ehtimal edilir ki, sabiq vitse-primyer qoyun sürülərini Gəncədəki qohumlarına həvalə edib və güman ki, fermanı onlardan birinin adına rəsmiləşdirib.

**2013 prezident seçkiləri ərəfəsi RATİ-"Milyarderlər İttifaqı" yaradaraq rəsmi Bakıya qarşı cəbhə açan A.Abbasov Azərbaycan iqtidarı ilə bütün körpüləri yandırıb. Ona Azərbaycana gəlmək qeyri-rəsmi qadağan olunub. Bu günlərdə isə Rusiyadakı Azərbaycan təşkilatları rəhbərləri prezident İlham Əliyevə müraciət ediblər. Müraciətdə A.Abbasovu azərbaycanlıları Azərbaycan prezidentinə qarşı təşkilatlandırmaqda ittiham ediblər. A.Abbasovun Azərbaycandakı biznesini ölkədən tədricən çıxardığı barədə məlumatlar yayılsa da, onun qoyun sürüsü saxlaması xəbəri ilk dəfədir ki, ortaya çıxır.**

❑ Xəbər xidməti

# Mərakeş səfiri "Khazar İslands"da olub



### Səfir Həsən Hami: "Bunlar Azərbaycanın iqtisadi inkişafının göstəricisidir"

**"Avesta Konsern"in həyata keçirdiyi "Khazar İslands" şəhər-kompleksinin Azərbaycanda qeyri-neft sektorunda ən cəlbedici layihə olduğunu diplomatlar da təsdiq edir və bu onların əraziyə mütəmadi xarakter alan səfərinin səbəbidir. Mərakeş Krallığının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Həsən Haminin şəhər-kompleksinin salındığı əraziyə səfəri də layihəyə diplomatlar arasında olan marağın nəticəsidir.**

Səfir Həsən Hamini qəbul edən "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli hörmətli qonağa ilk öncə rəhbərlik etdiyi şirkət və onun Azərbaycanın müxtəlif bölgələrində bu günə kimi həyata keçirdiyi layihələr haqqında məlumat verib. Səfir Həsən Hami "Khazar İslands" layihəsinin necə yarandığı ilə maraqlanıb və Hacı İbrahim Nehrəmli bu şəhərin ideyasının yaranmasından bu günə kimi görülən inşaat işləri haqqında geniş məlumat verib. Səfir Həsən Hami "Khazar İslands" layihəsi haqqında məlumatlı olduğunu, ancaq şəhər-kompleksin inşası istiqamətində bu qədər işin həyata keçirildiyini təsəvvür etmədiyini, gördüklərinin onda dərin təəssürat yaratdığını qeyd edib. Belə böyük layihəyə imza atdığı üçün Hacı İbrahim Nehrəmlini təbrik edən səfir Həsən Hami "Khazar İslands"ın Azərbaycanın iqtisadi inkişafının göstəricisi olduğunu qeyd edib və qısa müddətdə ölkəmizin böyük uğurlar qazandığını deyib. Bu layihənin Azərbaycanın iqtisadi inkişafına bundan sonra yeni töhfələr verəcəyini qeyd edən səfir xüsusilə də turizmin inkişafına güclü təkan ola biləcəyini vurğulayıb.

Mərakeşlə Azərbaycanı birləşdirən ümumi dəyərlərin mövcudluğunu və bunun iqtisadi əməkdaşlığa geniş imkan verdiyini qeyd edən Hacı İbrahim Nehrəmli səfir Həsən Hamiyə Mərakeşə edəcəyi səfər haqqında da məlumat verib. "Avesta Konsern"in prezidenti qeyd edib ki, səfər zamanı rəsmi şəxslərlə və iş dünyasının nümayəndələri ilə çoxsaylı görüşlər nəzərdə tutulub. Səfir Həsən Hami Hacı İbrahim Nehrəmlinin bu səfərinin iki ölkə arasında iqtisadi münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə inandığını vurğulayıb və öz növbəsində bu əlaqələrin inkişafı üçün əlindən gələni edəcəyini vəd edib.

**"Khazar İslands"ın fəxri qonaqlar kitabına ürək sözlərini yazan səfir Həsən Hami layihənin həyata keçirilməsində "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmliyə uğurlar arzu edib və şəhər-kompleksin həyata keçirildiyi əraziyə yenidən səfər edəcəyini bildirib.**

❑ Xəbər XİDMƏTİ









# Onun adı Dəyanət, Rəşadət, Cəsur, Fədai olmalıydı...

**Xalid KAZIMLI**

**Onun adı yalnız sənədlərində Tofiqdir. Yalnız sənədlərində... Adı mahiyyətinə uyğun olsaydı, o da xoşbəxt olardı, istəyinə çatardı, arzularına yetərdi.**

Dəyanətdir onun adı. Heç kəsin tablaşa bilməyəcəyi dərdlərə, ələmlərə tablaşıb, tablaşır və yəqin ki, tablaşacaq, dayanacaq, dəyanət göstərəcək.

Dəyanəti olmasaydı, qanunsuz həbsinə, günün günorta çağı qızıl-qırmızıca şərlənməsinə dözə bilməzdi, dəyanət göstərə bilməzdi, usanardı, sınardı.

Dəyanətli olmasaydı, minlərlə qəzaya düşən insanlardan fərqli olaraq faciəvi qəzaya uğradığı üçün 6 ay boyunca həbsdə saxlanılan qızının fərağına dayana bilməzdi.

Ömür-gün yoldaşının, əziz balasının və can dostunun başqa bir ağır qəzaya düşməsi xəbərini alıb da, dəli olmamaq üçün adamda fil dəyanəti gərək idi və bu onda vardı. Dayandı, dəli olmadı, başını məhbəsin divarlarını döyüb partlatmadı.

Gənc qızının toyunda iştirak etmək, ona ata xeyir-duası verə bilmək imkanında olmamasına bəlkə çox adam dözə bilər, amma o gənc qızın bu dünyaya erkən vida etməsinə dözmək üçün adamda böyük dəyanət lazımdır. Onun əsl adı Dəyanət olmalıydı.

Bir adı da İgiddir onun. Gürcüstanda doğulub, orda böyüyüb, Bakıda təhsil alıb, amma özünü daima bu ölkənin oğlu sayıb, Qarabağ dərdini daşıyıb, Xocalı faciəsinin ağrısını içinə sindirə bilməyib. 1992-ci ilin martında silaha sarılıb, könüllülər batalyonunda rota komandiri olub, ağır döyüş yolu keçib, rəşadət, şücaət göstərib. Milli Qəhrəman fəxri adını alanların içində belə bu İgid insan qədər qəhrəmanlıq göstərən döyüşçülər azdır.

Onun əli qanlı-qanlı yazdığı müharibə memuralarının ilk oxucusu və çapa hazırlayanı olaraq deyirəm, dörd ümumi dəftərin səhifələri arasında üzümə boylanan igid obrazını hələ 1999-cu ildə görmüşəm. O, Xocalının qisasını 8 düşmən zabiti və əsgərindən almağa müvəffəq olmuş bir igiddir. Adini İgid qoyaydılar gərək. Əsgər də qoya bilərdilər, Zabit də. Onsuz da yenə igid olacaqdı. Onun adı Cəsur qoyulmuş olsaydı, yenə yaraşacaqdı. Qorxmaz olsaydı, yenəE

Onun adı Mübariz də ola bilərdi. Gözünü açandan mübarizələrdədir. Milli-azadlıq hərəkatının ilk günlərindən meydanlardadır. Cəmi 30 yaşında böyük bir rayonun İH başçısının 1-ci müavini olanda da mübarizə aparıb, vəzifəsindən istefa verəndən sonra da. Həbs olunan günə qədər o, həmişə mübarizə ovqatında olub. İcazəsiz aksiyalarda hamıdan çox fiziki zərbəni o yeyib, hamıdan çox o tutulub, təcridxanaya salınıb, ancaq geri durmaq, tərəddüd etmək söhbəti olmayıb.

Onun adı Aydın deyil, amma özü aydındır, ziyadır. Bir idmançının, döyüşçünün eyni zamanda intellektual insan olması nadir rast gəlinən hadisədir, amma Tofiqdə olan yazarlıq istedadı unikaldır. Bəlkə də heç kim bilmir ki, o, əfsanəvi “Çeşmə” satirik qəzetinin son nömrələrinin yazarlarından biriydi.

Onun adı Sadiq olmalıydı. Həmişə öz yoluna, partiyasına, liderinə, prinsiplərinə, döyüş dostlarına, əqidə yoldaşlarına, özünə sədaqətli oldu.

Amma o, heç vaxt Ağaqulu olmadı, Qulam, Naib olmadı, həmişə sözünü dedi, nəyəsə etirazı vardısa, susmadı, nədən narazıydısa, dilə gətirdi.

Son 22 ildə o tofiq olmadı, ola bilmədi, böyük arzuları həmişə daşa dəydi, planları hər zaman dəyişikliyə məruz qaldı, ömrü zavallar içində, sıxıntılarla keçdi. Ölkənin ən ali ordenlərinə, fəxri adlarına layiq olan adam adicə veteran təqaüdünü belə illərlə ala bilmədi. Qəhrəman olmalıydı onu adı, olmadı, özü fədai oldu, adı müxalifətçi.

Yaşadı, yaşa doldu, övladlarını özü kimi dəyanətli, mübariz, igid, ziyalı, qorxmaz, sadiq böyütdü, amma gözü dolusu xoş günlərini görmədi, fərəhlərini dadmadı.

Adı Etibar deyil, amma özü etibarlıdır. Adı Rəşid, Rəşadət deyil, amma özü rəşadətlidir.

Azad olmalıydı onun adı. Təkcə adı, yox, özü də azad olmalıydı, azadlıqda olmalıydı. Fəqət o, dustaqdır, içəridədir. İndi əziz, gözəl balasının vəfatıyla bağlı azadlığa çıxıb.

**Onun adı Qurban deyil, amma özünü xalqının yolunda qurban edənlərdən biridir. O kişinin adı Tofiqdir, soyadı Yaqubludur, özü Vətən oğludur.**

---

# “Biz özümüzə, millətimizə sahib çıxmalıyıq”

## MSDM qondarma “erməni soyqırımı”nı müzakirə etdi; “Əsl soyqırım Qarabağda baş verib, orada hazırda nə müsəlman, nə də türk var”

**Aprelin 24-də Milli Strateji Düşüncə Mərkəzinin (MSDM) təşkilatçılığı ilə Çanaqqala zəfəri və qondarma erməni “soyqırımı”na həsr olunmuş tədbir keçirilib. Müsavat Partiyasının qərargahında keçirilən tədbirdə MSDM-nin rəhbəri İsa Qəmbər, AXP sədri Pənah Hüseyn, Müsavat və digər partiyaların təmsilçiləri, o cümlədən tanınmış ziyalılar, tarixçilər və digər ekspertlər iştirak ediblər.**









Musavat.com-un verdiyi xəbərə görə, əvvəlcə dəyirmi masa iştirakçıları şəhidlərin və bir gün əvvəl dünyasını dəyişən Müsavat fəalı Nərgiz Yaqublunun xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Daha sonra çıxış edən **İsa Qəmbər** tədbirin əhəmiyyətindən söz açıb. O, bildirib ki, ermənilərin “soyqırım” yalanı və Qarabağ məsələsinə həsr olunan dəyirmi masanın keçirilməsi çox əhəmiyyətlidir: “Türkiyədə Çanaqqala zəfəri qeyd olunur. Bir neçə ölkənin prezidenti həmin zəfərin əhəmiyyəti və dünya sülh çağırışı üçün oradadırlar. İrəvanda isə saxta "soyqırım" yalanının yüz illiyi ilə bağlı tədbir keçirilir. Dünyanın diqqəti bu gündədir. Biz istəyirik ki, müzakirəmiz faktlara əsaslansın. Tarixçi kimi özüm üçün də zamanında bu məsələni araşdırmışam. Araşdırmışam ki, yalan və həqiqətlər bundan ibarətdir. “Soyqırım” məsələsi bütövlükdə yalandır. Bir neçə istiqamətdə yalandır. Baş verən faciə soyqırım, genosid klassikasına uyğun gəlmir. Genosid etnik, milli, dini əlamətə görə bir toplumun şüurlu şəkildə məhv edilməsinə deyilir. Ermənilərlə bağlı baş verən olay deportasiyadır, daxili deportasiyadır. Birinci yalan bundan ibarətdir. İkinci yalan o zaman dünyasını dəyişmiş ermənilərin sayı ilə bağlıdır. Artıq dünya alimləri məcbur olub deyirlər ki, açıqlanan bu sayda erməni heç Osmanlı İmperiyasında yaşamayıb. Üçüncü yalan ondan ibarətdir ki, həmin dövrdə deportasiyanın konkret səbəbləri var idi. Ermənilər Rusiya və bir sıra başqa dövlətlərə qoşularaq onların çağırışından ilhamlanaraq öz dövlətlərinə qarşı hərbi əməliyyatlarda iştirak edirdilər. Kütləvi qətliamlar həyata keçirirdilər. Bütöv kəndləri qılıncdan keçirirdilər. Dördüncü, ermənilər özlərinin yeganə məzlum obrazını düzəltməyə çalışırlar. Bütövlükdə savaş gedən bölgələrdə ölənlər təkcə ermənilər deyildi, baş xalqlar da itkilər veriblər".

**İ.Qəmbərin sözlərinə görə, ermənilər tərəfindən ortaya atılan yalanlar uzun onilliklərdir davam edir:** “Həm türk, həm Azərbaycan alimləri bu məsələ ilə bağlı çoxsaylı araşdırmalar həyata keçiriblər. Eyni zamanda, Türkiyə dövləti neçə on illərdir ki, arxivləri açmağa hazır olduğunu bəyan edib. İndi də bu proses yeni bir mərhələyə daxil olub. Türkiyə hökuməti bu istiqamətdə addımlar atır. Erməni tərəf isə bununla bağlı araşdırma aparılmasına razı deyil, susur, bu yalanı birmənalı şəkildə qəbul etdirmək istəyir”.

Tarixçilər Yasəmən Qaraqoyunlu və Xaqani İsmayıl isə o dövrdə baş verən hadisələrdən geniş danışaraq “soyqırım” iddialarını yalanlayıblar. Yasəmən Qaraqoyunlu bildirib ki, o zaman yaşanan olaylar türk dövlətlərinin sıradan çıxmasına hesablanmışdı: “Türk millətini çökdürmək üçün erməni məsələsindən zaman-zaman istifadə edilməkdədir”.

**Xaqani İsmayılın sözlərinə görə, baş verənləri deportasiya da hesab etmək tam fikir deyil:** “Bu, hətta müvəqqəti köçürülmə idi. Çünki köçürülən ərazilər də türklərin ərazisi idi. Köçürülənlərə kompensasiya ödənilmişdi”. Hər iki tarixçi faktlara və bir sıra mənbələrə istinad edərək ermənilərin iddialarının yalan və böhtan olduğunu vurğulayıblar. Onların sözlərinə görə, hətta bəzi erməni tarixçilər də iddiaların əksinə çıxıblar və baş verən hadisənin soyqırım olmadığını açıqlayıblar. Tarixçi Əli Abbasov isə qeyd edib ki, ermənilər hətta bir-birinə oxşar olmayan versiyalar irəli sürürlər. “Əhrar” Partiyasının sədri Vaqif Hacıbəyli isə ermənilər və baş verən olaylara qarşı liberal olmağın vacibliyini bildirib: “Ermənilərdən əxz edəcəyimiz nəsə yoxdur”.

**“Bozqurd” Partiyasının sədri İsgəndər Həmidov isə vurğulayıb ki, ifrat millətçiliklə türk millətçiliyini müqayisə etmək düzgün deyil:** “Qondarma erməni "soyqırımı" bu gün təntənəli şəkildə qeyd edilir. Poma Papası bunu qəbul edib və katolik, xristian dövlətlərin hamısı bunu qəbul edəcəklər, tanıyacaqlar. Biz özümüzə, millətimizə sahib çıxmalıyıq".

**İ.Həmidov Qarabağ problemindən və ermənilərin buradakı işğalından, törətdikləri soyqırımdan da danışıb:** “Əsl soyqırım Qarabağda baş verib, orada hazırda nə müsəlman, nə də türk var. Qarabağda yaşayan kürdlər də İslam dininin daşıyıcısı olduqlarına görə ermənilərin soyqırımına məruz qalıblar. Burada deyirlər ki, millətçilik Azərbaycana nə verib? 250 min erməninin Bakı və Sumqayıtdan köçürülməyinə səbəb olub. O millətçi düşüncəsi və təfəkkürü olmasaydı, indi ermənilər Bakıda yaşayır və buradakı qohumları ilə birlikdə türklərin başını kəsirdilər. Biz millətçilik düşünxcəmizi unutmamalıyıq ki, bir də Bakıya erməni gəlib çıxmasın, ən azı düşünək ki, bu, ermənidir. Ermənilər bizi qıranda türk adı ilə qırıblar, türk olduğumuza görə qırıblar. Türk milləti başqasının haqqına girmir, aşağılamır. Bu məmləkət türk məmləkətidir. Belə getsə, bir azdan burada türkü müdafiə komitəsi yaranacaq. Çox ağır olsa da, bu, həqiqətdir. Qarabağ məsələsinin çıxış yolu hərbdən keçir. Bu gün ermənilər qalib millət kimi öz fikirlərini dünyaya diqtə edirlər. Bir neçə rayon azad edib onlarla stol arxasında otursaq, onların mövqeyi başqa olar”.

**AXP sədri Pənah Hüseyn isə qeyd edib ki, ermənistandakı qondarma “soyqırım” tədbirinə dörd ölkənin prezidentinin getməsi də sadə bir məsələ deyil:** “Ermənilər və müəyyən dövlətlər bu "genosid"i qəbul edəcəklər. Bir hissə də “genosid”i qəbul etməyənlər olacaq. Sırf ideoloji, geosiyasi məsələdir. Oyunun qaydası budur".

Sonda tədbir iştirakçıları türklərin ermənilər tərəfindən soyqırıma məruz qalması, erməni işğalı, həmçinin ermənilərin saxta iddiaları ilə bağlı geniş müzakirənin keçirilməsini, problemin dünya çapında ictimailəşməsi üçün tədbirlər planının işlənib hazırlanmasını qərara alıblar.

Qeyd edək ki, Çanaqqala savaşı I Dünya müharibəsi zamanı 1915-1916-cı illərdə Osmanlı İmperiyası ilə Antanta bloku üzrə müttəfiqlər arasında dənizdə və quruda baş verib. Müttəfiqlər Osmanlı İmperiyasını paytaxtı İstanbulu ələ keçirərək İstanbul və Çanaqqala (Bosfor və Dardanel) boğazlarını nəzarət altına almağı qarşılarına məqsəd qoyublar. Mübarizə 1915-ci ilin yanvar-fevral aylarında taktiki gedişlərlə şiddətlənincə ingilislər Aralıq dənizi səfəri ordusunu, Osmanlının İttihad və Tərəqqi hökuməti isə alman komandan van Sandersin komandanlığında 5-ci ordunu qurmuşdu. Alman generalın ləng addımlarına qarşı çıxan 57-ci alay komandanı, polkovnik Mustafa Kamal təşəbbüsü öz üzərinə alaraq düşmənin 15 min nəfərlik ordusuna qarşı 5 min əsgərlə savaşa girmişdi. Əsgərlərinə “Sizə ölməyi əmr edirəm!” - deyən polkovnik Mustafa Kamal onların cəbhədən geri çəkilməsini əngəlləyərək süngülə vuruşmağa təşviq etmişdi. İlk qələbənin qazanılmasından sonra Anafartalar qrupunun komandanlığına gətirilən Mustafa Kamal işğalçı orduların Gelibolu yarımadasından tamamilə təmizlənməsi üçün 259 gün mübarizə aparmışdı. Tarixin gedişatının dəyişdirməsi baxımından Çanaqqala savaşlarında türklərin qələbəsi XX əsrin ən böyük hadisəsi sayılır. Çanaqqala savaşı həm də Mustafa Kamal kimi hərbi və siyasi bir dühanı tarix səhnəsinə çıxaran olay kimi tarixə keçib. 1919-cu ilin mayında vətən torpaqlarının azad edilməsi üçün İstiqlal savaşını başladan Mustafa Kamal, işğalçıları ölkədən çıxarandan sonra 23 iyul 1923-cü ildə İsveçrənin Lozan şəhərində imzalanan sazişlə ölkəsinin qələbəsini təmin edərək 29 oktyabrda Türkiyə Cümhuriyyətini elan edib.

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015




# Ümid Partiyasında qadın hüquqları müzakirə olundu

## Həcər Abbaslı: "Gender problemi məişətdə həll oluna bilmir"

**21 aprel Ümid Partiyasının mərkəzi qərargahında partiyanın Gender Bərabərliyi şöbəsinin təşkilatçılığı ilə "Azərbaycanda Gender Bərabərliyi" mövzusunda dəyirmi masa keçirildi. Gender Bərabərliyi şöbəsinin müdiri Həcər Abbaslı mövzu ilə bağlı məruzə ilə çıxış etdi. O öz çıxışında bildirdi ki, ölkəmizdə gender bərabərliyi termini yenidir və bu sahə yeni olmasına baxmayaraq artıq gender sahəsində problemlərin həlli ilə bağlı ilkin addımlar atılmağa başlanılıb.**

Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilər ilə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi ilə bağlı müəyyən işlər görülüb. Amma bunlar problemin həllində yetərli deyil. BMT-nin qadınlara qarşı bütün ayrı-seçkilik formalarının ləğvinə dair Konvensiyası ölkəmizdə bu sahədə mövcud problemlərin həllinə yönəlib, lakin reallıqda konvensiyadakı maddələrə əməl edilmir. Konvensiyanın Azərbaycanda həyata keçirilməsi məqsədilə bir sıra böyük problemləri həll etmək lazımdır. Söhbət bərabərliyin təmin olunmasının hüquqi və dövlət mexanizmlərinin adekvatlığından tutmuş qadınların roluna və onların əsas hüquqlarının pozulmasına aid olan davranış modelləri, mədəni və b. təsəvvürlərin xarakterinə qədər məsələləri əhatə edən problemlərin geniş dairəsindən gedir. Qadınların əsas hüquqlarına gəlincə, qadınlara qarşı ayrı-seçkiliyə Iqadınların ailə vəziyyətindən asılı olmayaraq, onların siyasi, iqtisadi, sosial, mədəni, vətəndaş və istənilən başqa sahədəki insan hüquqları və əsas azadlıqlarından kişilərlə qadınların bərabərhüquqluluğu əsasında istifadə etməsini və ya onları həyata keçirməsini cinsi əlamətə görə zəiflətməyə yönəlmiş, yaxud onları yox dərəcəsinə endirən istənilən fərqləndirmə, məhrumetmə, yaxud məhdudlaşdırma» (BMT-nin qadınlara qarşı bütün ayrı-seçkilik formalarının ləğvinə dair Konvensiyası) kimi tərif verilir. İqtisadiyyatda keçid dövrünü yaşayan ölkələrdə dövlətin rolunun dəyişməsi ilə əlaqədar hökumət vətəndaşların hüquqlarının, eləcə də kişilərlə qadınlar arasında bərabərliyin təmin edilməsində mühüm rol oynamalı olur. Keçmiş sosialist ölkələrində dövlətin, cəza aparatı rolu oynadığını nəzərə alsaq, burada onun cəmiyyətin dəyər və normalarına istənilən müdaxiləsinə kəskin,hətta ağrılı reaksiya müşahidə olunur. Deyilənlərlə yanaşı, Azərbaycanda Konvensiyanın bərabərliyə dair və digər müddəalarının reallaşdırılmasına əksər hallarda geniş yayılmış və sabit şəkil almış gender stereotipləri və mədəni ənənələr də mane olur. Gender bərabərsizliyi problemi məişətdə həmişə həll oluna bilmir, bəzən hökumət qadınlara ictimai sahədə müstəqil fəaliyyət göstərən şəxsiyyətlər kimi deyil, ailə kontekstində, ana qismində baxmağa meylli olur. Qadınlar haqqında bu stereotip təsəvvürlər çox vaxt hüquqi və faktiki bərabərlik arasındakı uyğunsuzluğun əsasında durur. Qadın hüquqlarının pozulması davam edir, bəzi hallarda hətta güclənir. Qeyd edildiyi kimi,qadın hüquqlarına təhlükə törədən səbəblərdən biri də yoxsulluğun yayılmasıdır. İşsiz və kəndli qadınlara və ya qadın sahibkarlığının inkişafına yardım göstərilmir. Sosial dəyişikliklərin təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, keçid dövrü qadınların şəxsi və ictimai həyatına çox böyük təsir göstərmişdir. Keçid dövrünü yaşayan ölkələrdə, bərabərliyin hüquqi əsaslarının müəyyən edilməsinə baxmayaraq, qanunun ruhunun iş yerində, ailədə və cəmiyyətdə gündəlik reallığa çevrilməsi üçün hələ çox işlər görülməlidir. Gender bərabərliyi sahəsində tərəqqi keçid prosesində uğurlar qazanılmasını yaxınlaşdıra, yaranan imkanların qadınlar, kişilər və uşaqlar arasında ədalətli bölünməsini təmin edə bilər. Buna görə də bu məsələləri ciddi tədqiq etmək və keçid dövrünü yaşayan ölkələrdə qadınların səsinin eşidilməsinə nail olmaq fövqəladə dərəcədə vacibdir. Ümid Partiyası olaraq bu sahədə fəaliyyətimizi genişləndirməyi və addımlarımızı sürətləndirməyi düşünürük.






**Cəmiyyətin iqtisadi, sosial və siyasi inkişafı prosesində qadınların iştirakının səciyyəsi və səviyyəsi onların firavanlığı, həm də şübhəsiz ki, keçid prosesinin özünün uğur qazanması üçün həyati əhəmiyyət kəsb edir.** Qadınların yerli səviyyədə siyasi fəaliyyətdə və elmi istehsalat birliklərindəki işlərdə iştirakı, onların siyasi və ictimai həyatda nüfuzlarının artmasına kömək etdiyi kimi, ailə iqtisadiyyatında və kiçik sahibkarlıqda qadınların əməyinin müdafiə olunub qiymətləndirilməsi də öz növbəsində onların iqtisadi sahədə yerinin möhkəmlənməsinə kömək edir.

Qadınların cəmiyyətdə özlərinə görə haqlı narazılıqları, kişilərin isə böyük iddiaları əslində gender bərabərliyinin qeyd olunan şərtlərinə əməl olunmaması və qadın və kişilərin hüquqlarını bilməmələri nəticəsində yaranır. Qadına və kişiyə cinsinə və fərdiliyinə görə fərq qoyulması isə bu məsələlərdən sonra alt qatlarda yerləşir. Həcər Abbaslı məruzəsinin sonunda qeyd edib ki, Gender bərabərliyinin təmin edilməsi üçün dövlət öz üzərinə götürdüyü öhdəlikləri yəni gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı, normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi və gender bərabərliyi mədəniyyətinin təbliği istiqamətində fəaliyyətini genişləndirməlidir.

**Sonra partiya sədrinin birinci müavini Ənvər Ağazadə, Ali Məclisin sədri Rəfail Tağızadə, İcra Aparatının rəhbəri Taleh Əliyev, sədrin Təşkilati məsələlər üzrə müavini Qasım Həsənov, Ali Məclis sədrinin müavini Tamilla Məmmədova, Humanitar şöbənin müdiri Günel İbadova, Analitik təhlil və Siyasi proqnozlaşdırma üzrə şöbə müdiri Fəxrəddin Abdullayev, "125 siyasi Klubunun" üzvü Yeganə Hacıyeva və digərləri mövzu ətrafında çıxış etdilər və müzakirələr aparıldı.**

Qeyd edək ki, Ümid Partiyası bir neçə aydır ki, ardıcıl olaraq hər həftə müxtəlif mövzularda dəyirmi masalar keçirir. Mövzular əvvəlcədən İcra Aparatının hər həftə keçirilən yığıncağında şöbə müdirləri tərəfindən kollegial şəkildə müzakirə olunur.

## "Türkiyənin yanında olmaq vəfa borcumuzdur"

### Rüfət Muradlı: "Türkiyə və onun kənarında türk dövlətləri varsa bunun yaşam fəlsəfəsini Canaqqalada axtara bilərik"

**Məlum olduğu kimi bu gün Türkiyənin Canaqqala şəhərində zəfərin 100 illiyi mərasimi qeyd olunur. Dünyanın 70-dən artıq ölkəsinin təmsilçilərinin bu mərasimə qatılması həm də ermənilərin sözdə soyqırım iddialarına cavab anlamında da yozula bilər. Elə bu məqsədlə Ümid Partiyasının İctimaiyyətlə əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlıya müraciət etdik. Rüfət Muradlının düşüncələrini sizə təqdim edirik:**

"Mənim düşüncəmə görə Çanaqqala zəfəri 20-ci əsrdə Türklük adına varlıq mücadiləsinin apoqeyidir. Bu gün Türkiyə və onun kənarında türk dövlətləri varsa bunun yaşam fəlsəfəsini Canaqqalada axtara bilərik. Təsəvvür edin. 1918-ci ildə Bakıda mart qırğınlarında Nuru Paşa önderliyində Türk ordusu bizi daşnak-bolşevik cəlladlarının caynağından xilas etdisə bunu da Canaqqala zəfərinə borcluyuq. Tarixdə Azərbaycan adlı dövlətin imzasını da məhz bu Zəfərə borcluyuq. Ən çətin anlarımızda bir birimizin yanında olmamız mənəvi borcumuz olduğu kimi, bu gün qardaş Türkiyənin sevincini də bərabər paylaşırıq. Və bu zəfərin qazanılmasında Anadoludakı qardaşları ilə çiyin-çiyinə vuruşan Azərbaycan türkünün də payının olması təbiidir. Yəni eyni acıyı, eyni sevinci birgə paylaşmaq bizim təbii haqqımızdır. Əgər bu gün özünü dünyanın demokratiya səngərinin öncüllərindən sayan Fransanın dövlət başçısı bəşəriyyət üçün avantüra mənbəyinə çevrilən Vladimir Putinin kənarında ermənin "qəminə şərik olmaq" üçün İrəvandadırlarsa, onda biz də bu haqqımızda daim israrlı olmalıyıq. Əgər bu gün Qarabağ məsələsinin çözülməsi üçün təşkil olunan Minsk qrupunun üç həmsədrindən ikisi açıq aşkar bitərəfliliyini pozursa , nə olursa olsun biz də bu haqqımızdan vaz keçməməliyik. Bir halda ki, Türkiyənin yanında olmaq həm də vəfa borcumuzdur".

**Başsağlığı**

**Müsavat Partiyası başqanının həbsdə olan müavini Tofiq Yaqublunun ailəsinə ağır itki üz verib.
Onun qızı Nərgiz Yaqublu vaxtsız vəfat edib.
Ümid Partiyasının sədri millət vəkili, İqbal Ağazadə və partiyanın rəyasət heyəti
Tofiq Yaqubluya və ailəsinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin.**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015



# Cibində oğrular oynayan nazir

Zamin HACI
zaminhaci@gmail.com

**Orta statistik azərbaycanlının aylıq qazancı hökumətin dediyinə görə guya 442 manatdır. Ancaq biz hamımız reallığı yaxşı bilirik, bilirik ki, ölkədə orta maaş 250 manatdan yuxarı deyil. Sadəcə, dolanışıq və ölməmək üçün yerdə qalan hissəni hərə bir yerdən çırpışdırır. Oğurluq kütləvi yayıldığı üçün millətin gözü kölgəlidir, daha böyük oğrulara - öz rəhbərlərinə etiraz eləmirlər.**

Uzun sözün qısası, sadə azərbaycanlının gəlirləri o qədər azdır ki, kimsə cibinə girib 1 manat çıxarsa bunu dərhal hiss edir. Hətta daha kasıblarımız var, qəpiyə güllə atırlar. Adam tanıyıram, uşağı cibindən 20 qəpik götürdüyü üçün çırpmışdı. Məsələn, mən özüm ancaq 50 qəpikdən sonra duyuq düşürəm. (Ümid edirəm uşaqlar bu yazını oxumaz).

MTN-in tutduğu bir dəstə isə nəqliyyat nazirinin qohum-əqrabasının bank hesablarından bala-bala pul əkişdirirmiş. Misal üçün, nazirin bir qardaşından iki aya 80 min manat çəkiblər. O biri qardaşından 66 min manat və sairə. Lakin nazirin əqrəbaları və yaxın ətrafı bu oğurluqdan yalnız dəstə tutulandan sonra xəbər bilibdir.

Dünyada bank hesabları oğrularının belə sevimli metodu var. Kiminsə hesabını ələ keçirəndə adətən oğurluğu xırda-xırda edirlər ki, adam duyuq düşməsin. Deməli bizim nazirin ətrafı üçün 60-80 min manat xırda pullar imiş. Halal olsun. Fəxr edirik. Məncə Avropa Oyunlarında bir stadionun azarkeşlə doldurulması xərcini nazirin qardaşlarına tapşırmaq mümkündür. Hətta zəruridir.

Söz düşmüşkən, son aylar camaatımız arasında küçədəki ödəmə terminallarını ("PayPoynt", "Million" və s.) dibindən qopardıb aparmaq halları artmışdır. Elə dünən birini apardılar. Bunlar böyük ehtimalla qardaşı nazir ola bilməyən yazıq adamlardır. Əlbəttə, biz cinayət hadisəsini qınayırıq, "oğrudan oğruya halaldır" formullu milli dəyərimizi, ümumxalq fəlsəfəsini qınayırıq. Yadda saxlayın ki, ən bacarıqlı oğru ələ keçməyən oğrudur. Palaza bürün, xalçanı oğurla. El gücü, pul gücü. Atası budaq-budaq oğurladığını, balası kökündən qazıb aparar. Ermənıyə dayı de, uydurma soyqırımı dırnaqda yaz. At ölüb, itlər ondan kolbasa qayırırlar. Belə ata sözlərimiz çoxdur, maşallah. Oxucular xahiş eləsə dalını da yazaram, türkün məsəli.

Dünən internetdə bir xəbəri də yanlış oxudum, istəyirəm oxucularımızın məlumatı olsun. Gördüm yazıblar: "200 kəndin adına kredit götürən qadın həbs olundu". Sən demə burada "kəndlinin" yazıbmışlar. Bir qadın həmkəndlilərinin sənədləri ilə bankdan kredit alıb qaçıbmış, şanlı, cəsur, başı üstündən quş da uçmayan polisimiz isə bunu hərləyib-fırlayıb tutubdur. İndi mən yanlış oxuduğum hissəyə qayıtmaq istərdim. Yanlış da bir naxışdır. Kor kora kor deməsə sabitlik əldən gedər. Hər dərədə bir at öldürüb, xarici siyasət qurub. Hələlik bu qədər bəsdir.

Azərbaycan hakimiyyəti indiyə qədər xarici banklardan milyardlarla kredit alıbdır. Təzə məlumata görə hərəmizin 500 manat kredit borcumuz var - məmə deyəndən pəpə yeyənə qədər hər kəs borcludur, hətta uşaqlar borcla doğulur. Neft pulu da bitir, bilinmir gələcəkdə bu kreditləri nə təhər qaytaracağıq. Bəs 9 milyon azərbaycanlının adına (yarım milyon çıxdım iqtdarın qohum-əqrəbasının hesabına) kredit alıb çırpışdıranları haçan tutacaqlar? 200 kəndlinin kreditini yeyəni nənəm də tutar, hünəriniz var milyardlarla kredit udanlara "kiş"dən zaddan bir şey deyin. Deyə bilməzsiniz. Gücünüz elə o fağır qadına çatır.

**Ya o qadını buraxın, ya da danışıqlara gedək, bizə öyrətsin görək bu xarici borcları necə batıra bilərik. Lazımdırsa pasportlarımızı yığaq verək.**

---

**Azərbaycanın büdcə gəlirlərinin azalması və manatın devalvasiyasından sonra yaranan böhran ölkənin taleyüklü məsələlərinin həllində iki nazirin rolunu daha da artırdı. Bu günlərdə dövlət iqtisadiyyatının əsas yükü maliyyə naziri Samir Şərifov və vergilər naziri Fazil Məmmədovun üzərinə düşüb. Mətbuatda son zamanlar qeyri-rəsmi şəkildə ölkə başçısının bu iki şəxsə müstəsna səlahiyyətlər verdiyi haqqında iddialar yer alır.**

# İqtisadi böhran iki naziri xoşbəxt edə bilər

## Fazil Məmmədovla Samir Şərifovun maliyyə proseslərində önə çıxmaları, əlavə səlahiyyət əldə etmələri onların siyasi perspektivinə müsbət təsir göstərə bilər - baş nazirlik uğrunda iki məmurun arasında yarış başlayır

**Heç kimə sirr deyil ki, Vergilər Naziri Fazil Məmmədov ən kiçik iş adamından ən böyük oliqarxlara qədər hər kəsin obyektlərində yoxlamalar həyata keçirir və köhnə vergi borcları qabardılır.** Təbii ki, bu bir tərəfdən nazirin nüfuzunun artmasına gətirib çıxarırsa, digər tərəfdən onu sevməyənlərin də sayı artır. Təsadüfi deyil ki, bir neçə gün öncə Fazil Məmmədova məxsus olduğu bildirilən və ona yaxın şəxslər tərəfindən idarə edilən "Metorpark" ticarət mərkəzində zəhərlənmə hadisəsi baş verdi. Mətbuatda bu məsələnin arxasında vergilər nazirini sevməyən şəxslərin olduğu ilə bağlı ehtimallar səsləndirildi.

Hazırda bu iki şəxsin adı baş nazir postuna namizəd kimi hallanır. İddialara görə, böhran vəziyyətində ölkənin iqtisadi durumunu yoluna qoymaq onların qarşısında sadəcə bir sınaqdır. Bu sınaqdan uğurla keçən şəxs isə ölkənin növbəti baş naziri ola bilər.

Düzdür bir çox ölkələrdə baş nazir prezidentdən sonra ikinci şəxs sayılsa da Azərbaycan reallığında bu, belə deyil. Bizdə baş nazirin fəaliyyəti demək olar ki, yoxdur. Ancaq təbii ki, burada kürsüdə olan, vəzifə tutan adamın şəxsi keyfiyyətindən də çox şey asılıdır.

"Yeni Müsavat" qəzeti olaraq, maliyyə naziri Samir Şərifovun və vergilər naziri Fazil Məmmədovun neft və manat sınağından üzüağ çıxacağı təqdirdə birinin baş nazir postuna keçəcəyi ehtimalını dəyərləndirməyə çalışdıq.

**Millət vəkili Zahid Oruc** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırkı baş nazirin fəaliyyətdə olduğu bir dövrdə bu cür iddiaların ortaya atılmasını məqbul saymır: "Azərbaycanda bu ilin fevral ayının 21-də manatın devalvasiyası ilə bağlı verilən qərar regiona yönəlik yürüdülən sanksiyaların bizdən də yan keçmədiyini, müxtəlif tərəflərdən Rusiya-Azərbaycan ticarət əlaqələrinə təsir göstərdiyini, eləcə də ölkənin digər xarici dövlətlərlə ticarət əlaqələrində problemlər yaratdığının fərqindəyik. Xüsusilə də neftin ucuzlaşması Azərbaycanın büdcə gəlirlərinin azalmasında təsir göstərib. Buna görə də, etiraf etmək lazımdır ki, hökumət daha artıq çağırışların, müxtəlif təsirlərin və risklərin altındadır. Bir müddət öncə maliyyə naziri də açıqlama verməşdi ki, investisiya xərclərində ixtisarlar aparılacaq. Bu açıqlama da xeyli reaksiyalar doğurmuşdu. Bu baxımdan o fikir doğrudur ki, həm Maliyyə, həm İqtisadi İnkişaf, həm Mərkəzi Bank, həm də Vergilər Nazirliyi 2015-ci ilə daha fərqli və sıx vəzifələrlə daxil oldu. Beynəlxalq şəraiti nəzərə alsaq, indiki dönəm 2014-cü illə müqayisədə o qədər də uyarlı deyil. Bu hadisələr fonunda iqtisadi təhlillər aparılarkən, buradan həm də bir sınaq kimi baş nazirliyə gedən yolun başladığını kimsə iddia edirsə, bunu nə təkzib, nə də təsdiq etmək istəmərəm. Ona görə ki, mətbuatın haqqı var ki, məsələlərə istədikləri kimi yanaşma sərgiləsin. Adı çəkilən hər iki nazir hökumət komandası içərisində çoxdan yer alan məmurlardır. Onlar dövlət işini kifayət qədər peşəkar bilirlər. Mən burada Mərkəzi Bankın rəhbərinin də adına yer verərdim. Ancaq gələcək baş nazirin axtarışına çıxmazdan əvvəl düşünmək lazımdır ki, ölkə rəhbəri özünün icra komandasını formalaşdırmaqda müstəsna səlahiyyətlərə malikdir. Ona görə də, baş nazir Artur müəllimin çalışdığı bir dönəmdə belə bir iddiaları ortaya qoymağı effektli saymıram".



Fazil Məmmədov



Samir Şərifov

**Zahid Oruc: "Kimsə hazırkı iqtisadi böhranla mübarizədən baş nazirliyə gedən yolun başladığını iddia edirsə, bunu nə təkzib, nə də təsdiq etmək istəyərəm"**

**Politoloq Ərəstun Oruclu** isə bütövlükdə hökumətin bu iqtisadi böhrandan uğurla çıxacağına inanmadığını bildirdi: "Bu fikri söyləmək bir az çətindir. Ona görə ki, ilk növbədə bu iqtisadi vəziyyətdən çıxmaq lazımdır və məlum deyil ki, böhran nə dərəcədə ağır olacaq, hara qədər davam edəcək. Proqnozlara görə, yaxın aylarda neftin qiymətinin bir qədər də düşməsi ehtimalı var. Bu barədə çox riskli proqnozlar da verirlər. Buna görə də birmənalı fikir söyləmək çox çətindir. Mən o qədər də optimist deyiləm. Neftə olan güvən yalnız o halda özünü doğrulda bilər ki, neftin qiyməti artsın, neft 80-90 dollar həddinə çatsın. Bu bahalaşma gözlənilən deyil. Əksinə, neftin bir qədər də ucuzlaşacağı gözlənilir. Digər hallarda iqtisadiyyatın başqa yolla inkişaf etdirilməsi islahatlar tələb edir və bu islahatlar da xeyli zaman tələb edir. İlk növbədə baxmaq lazımdır ki, bu vəziyyətdən çıxış necə olacaq. Məsələn, Vergilər Nazirliyi nə edə bilər? Şirkətlərin hamısını küncə sıxıb onlardan vergi toplamaq. Bu isə son nəticədə ona səbəb olur ki, faktiki olaraq investisiya olunan kapital vergi şəklində dövlətin büdcəsinə transfer olunur. Başqa sözlə buna özəl sektorun dövlət tərəfindən talanması da demək olar. Bu baxımdan mən hökumətin bu durumdan uğurla çıxacağına əmin deyiləm".

**Politoloq onu da vurğuladı ki, Azərbaycanda baş nazir postu reallıqda nominal xarakter daşıyır:** "Bu həm də bir siyasi vəzifədir və baş nazir prezidentdən sonra ikinci şəxs sayılır. Ölkədə heç kim güclü bir baş nazirin olmasında maraqlı deyil. Belə olan halda iqtisadiyyatı böhrandan çıxarmış bir nazirin baş nazir postuna gətirilməsi məntiqdən kənardır".

❑ Nərgiz LİFTİYEVA

**Ermənistanın paytaxtında qondarma “erməni soyqırımı”nı “anım tədbirləri”ndə dünya dövlətləri sırasında prezident səviyyəsində iştirak edən cəmi iki ölkə oldu. Rusiya prezidenti Vladimir Putin və Fransa prezidenti Fransua Olland “yüz illik tədbirləri”ndə iştirak edib “erməni soyqırımı” abidəsi önündə baş əydilər. Çıxışlarında isə soyqırım ifadəsini açıq şəkildə işlətdilər.**

# Müxalifət Putin və Ollandı işğalçının tərəfini tutmaqda ittiham etdi

Azərbaycan hakimiyyəti hər iki prezidentin bu addımına onların səfər edəcəyi rəsmi açıqlandıqdan bu günəcən hər hansı kəskin münasibət ortaya qoymayıb. Rəsmi Bakının bu ehtiyatlı və çəkingən davranışını müəyyən mənada başa düşmək, bu davranışı iki böyük dövlətlə münasibətləri korlamamaq istəyindən irəli gələn hərəkət kimi qəbul etmək mümkündür.

Maraqlıdır ki, Azərbaycanın müxalifət partiyalarının da rəhbərliyi səviyyəsində dünənə qədər Putinin və Ollandın hərəkətinə sərt reaksiya verilmədiyi müşahidə olundu.

Məsələ ilə bağlı onların bir neçəsi ilə əlaqə saxladıq.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, Müsavat Valdimir Putinin və Fransua Ollandın qondarma “erməni soyqırımı”nın ildönümü ilə əlaqədar Ermənistan səfərini pisləyən və bu səfərin ATƏT-in Minsk qrupu həmsədrləri olan dövlət başçıları tərəfindən həyata keçirilməsinin bu problemin həlli yolunda bir əngəl kimi dəyərləndirən bəyanat verib: “Bu bəyanatımızdakı fikirlərin üzərində qalırıq. Azərbaycan hakimiyyətinin Putinin və Ollandın davranışlarına susqunluqla yanaşması isə İlham Əliyevin guya heç kəsdən çəkinməyərək müstəqil siyasət yeritdiyi barədə bəyanatları ilə uyğun gəlmir. Vladimir Putinin Ermənistana bu şəkildə səfəri bütövlükdə Qarabağ münaqişəsinin həlli yolunda problemlər yaradır, dolayısı ilə ermənilərin Azərbaycan ərazilərini işğal etməsinə haqq qazandırır. Azərbaycan hakimiyyəti tənqidə dözümlü yanaşan, atdıqları addımlara görə hansısa cəza gözləmədikləri Qərbə qarşı, ABŞ-a qarşı kəskin mövqe sergiləməkdən çəkinmirlər. Amma açıq-aydın görünür ki, hakimiyyət Rusiya qarşısında, Putinin atdığı addımlar qarşısında hər hansı bir etiraz belə, bildirmək iqtidarında deyil”.

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, Vladimir Putinin İrəvana getməsi ilə bağlı rəhbərlik etdiyi partiyanın İdarə Heyəti adından tənqidi mövqe ifadə olunub və mediaya yayılıb. Lakin təəssüf ki, media həmin materialı hansısa səbəbdən dərc etməyib: “Biz Putinin İrəvana səfəri ilə bağlı vaxtında mövqeyimizi bildirmişik. Nə edək ki, yazılı şəkildə yaydığımız mövqe mediada lazımi səviyyədə işıqlandırılmadı. Putinin ”erməni soyqırımı" məsələsində erməniləri müdafiə eləməsi Rusiyanın indiyə qədər iştirak etdiyi qətliamlarla bağlıdır. Rusiya 1918-ci ilin martında azərbaycanlıların qətliamında, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırımda ermənilərlə birlikdə iştirak edib. Rusiyanın Ermənistanı müdafiə etməsinin əsasında həmişə ermənilərdən bu bölgədə silah kimi istifadə etməsi ilə əlaqəlidir. Onlar bu bölgədəki digər xalqlara qarşı qətliamları, etnik təmizləmələri birlikdə həyata keçiriblər. Türkiyə bölgədə güc çevrilir, türk respublikaları müstəqilliklərini sürdürürlər. Ona görə də Rusiya 20 əsrin əvvəllərində olduğu kimi erməni silahını



**Arif Hacılı:**
**“Putinin Ermənistana bu şəkildə səfəri dolayısı ilə ermənilərin Azərbaycan ərazilərini işğal etməsinə haqq qazandırır”**



**Sərdar Cəlaloğlu:**
**“Rusiya 1918-ci ilin martında azərbaycanlıların qətliamında, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırımda ermənilərlə birlikdə iştirak edib”**



**İqbal Ağazadə:**
**“Fransa və Rusiyanın prezidentlərinin Ermənistanda qondarma “soyqırım” tədbirlərində iştirakı işğalçı tərəfin yanında olmağın göstəricisidir”**

sazlayır. Necə ki, 20-ci əsrin əvvəllərində Rusiya, ANTANTA ermənilərdən Azərbaycana, Türkiyəyə qarşı bir silah kimi istifadə edib türk xalqına qarşı soyqırımı həyata keçirdilər, indi də “erməni soyqırımı”nı tanımaq həmin siyasətin davamıdır. Putinin Ermənistana bu cür xüsusi diqqət göstərməsində məqsədi budur. Bu, ermənilərə məhəbbətdən irəli gəlmir, sadəcə olaraq Rusiya ermənilərdən həmişəki kimi bölgədəki digər millətlərin inkişafına mane olmaq üçün istifadə etmək üçün ermənilərin başını sığallayır. “Erməni soyqırımı” məsələsinin gündəmə gətirilməsinin Ermənistanın inkişafını əngəllədiyini soyuq başla düşünən ermənilər də bəyan edirlər".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, rəhbərlik etdiyi partiya artıq aprelin 24-də Putinin və Fransa prezidenti Olland İrəvana səfər etməsi ilə bağlı bəyanat verib: “ATƏT-in Minsk Qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində iştirak edən Fransa və Rusiyanın prezidentlərinin Ermənistanda qondarma ”soyqırım" tədbirlərində iştirakı işğalçı tərəfin yanında olmağın göstəricisidir. ATƏT-in Minsk Qrupunun həmsədrləri kimi bu addım onlar üçün yolverilməzdir. Tarixə qiymət vermək siyasətçilərin işi deyil. Dövlətlər bu tipli münasibətlər bəsləyirlərsə, onlar münaqişənin həllində ədalətli yanaşma sərgiləyə bilməzlər. 20-ci əsrin sonlarına yaxın Xocalı kimi bir soyqırımın olduğunu təsdiq edəcək bütün faktlar ortadaikən onu tanımayıb 1915-ci ildə guya “erməni soyqırımı”nın olduğunu iddia etmək Fransanın və Rusiyanın Ermənistanın mövqeyini dəstəkləyən dövlətlər olduğunun göstəricisidir. Mən əslində Rusiya və Fransanın bu mövqeyinə təəccüb etmirəm. Zaman-zaman belə olub, bundan sonra da belə olacaq. Biz bundan məyus olmamalıyıq. Biz fərqli yollar aramalıyıq. Bizimlə kim bu prosesdə ədalətli mövqe, beynəlxalq hüququn yanında olan mövqe sərgiləyə bilər onları araşdırmalıyıq və dostlarımızın sayını genişləndirməliyik".

❑ **Etibar SEYİDAĞA**

---

**Dünyadakı riyakarlıqlar və əclafliqlar bu günlərdə göz önündədir. Saxta erməni soyqırımına münasibətdə bunun bir daha şahidi olduq. Serbiya prezidenti Boris Tadiç gərək unutmayaydı ki, 1995-ci ildə Srebrenitsa şəhərində iki həftə ərzində 15 min türk-müsəlmanı soyqırım edən onun bu gün rəhbərlik etdiyi ölkədir...**

**Elşad PAŞASOY**
epashasoy@yahoo.com



# Cənubi Azərbaycanda türk soyqırımı

## (Özünü karlığa və korluğa vuranlar üçün)

**Fransa Allah qoymasa həmsədr ölkə kimi Qarabağ münaqişəsinin tənzimlənməsi ilə məşğuldur. Olland Ermənistanın qatil prezidentini bağrına basanda ehtiyatlanmalıydı ki, üst-başı qana bulanar, Sərkisyan xirtdəyinəcən qana bulanıb Xocalıda. Putin üçün də xatırlatmalı kifayət qədər faktlar var, 20 yanvar qırğınından tutmuş, 366-cı alayın Xocalıda erməni faşistlərlə birgə törətdiyi soyqırıma qədər. Ancaq nə faydası?**

Xocalı soyqırımı 100 ilin xəyali söhbəti deyil ki, 1992-ci ildə baş verib. 1992-ci ilin 8 aprelində törədilən Ağdaban soyqırımında bir kənd erməni separatçıları tərəfindən yandırılıb, 67 nəfər qətlə yetirilib - 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılıb.

Nisbətən uzaq tarixdə isə daha nələr olmayıb. 1905-ci, 1918-ci illərdə ermənilərin törətdikləri dəhşətlər isə yazmaqla bitən-tükənən deyil. Dönük ermənilərin Osmanlı ərazisindən köçürülməsi zərurətdən irəli gəlirdi. Türklər onları məhv etməkdənsə, deportasiya etməyi üstün tutdu, buna görə dünya Osmanlıya “sağ ol” deməlydi. Ancaq keçən əsrdə Azərbaycan türkləri dəfələrlə deportasiyaya məruz qalıb, 1948-1953-cü, 1988-1989-cu illərdə yüz minlərlə azərbaycanlı dədə-baba yurdundan sürgün edilib, minlərlə insanımız deportasiyanın qurbanı olub. Roma Papası, Avropa Parlamenti bu faktlara niyə “soyqırım” demir?!

Həqiqət göz kimidir, külünü üfürəndə qığılcım saçar. Həqiqət budur ki, erməni cəlladları təkcə Osmanlı ərazilərində, yaxud Şimalı Azərbaycanda deyil, Cənubi Azərbaycanda da dəhşətli qırğınlar törədib. 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kəndi - üst-üstə 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər soydaşımız soyqırıma məruz qoymuşdu.

I Dünya müharibəsi zamanı erməni silahlı dəstələri vəziyyətdən istifadə edib Xoy, Salmas, Soyuqbulaqdakı Azərbaycan türklərini böyükdən-kiçiyə görünməyən vəhşiliklə məhv etməyə başlayıb. Tarixi məxəzlər deyir ki, təkcə Urmiya bölgəsində ermənilər 150 min, Xoy bölgəsində isə 50 min Azərbaycan əhalisini qətlə yetirib. Türkiyə ərazisinin Şərqi Anadolu bölgəsində isə 200 min Azərbaycan türkü öldürülüb. Beləliklə, Azərbaycanın şimalı xaric, Yaxın Şərq bölgəsində 400 min Azərbaycan türkü ermənilər tərəfindən qətlə yetirilib. Soyqırım budur!!!

**Azərbaycanlıların soyqırımın gözləri ilə görmüş Motemed-Əlvözəra öz qeydlərində belə yazırdı:** “Şəhərə kimi atışma kəsilmədi. Səhər hökumət mərkəzinə gəldim. Raportlardan məlum oldu ki, gecə dəhşətli faciələr baş verib. Çilolarla ermənilər hücum edib təxminən 500 evi odlayıblar, azərbaycanlı əhalini qətlə yetiriblər. Qırğın səhəri gün də davam etmişdi. Həmin gün qırğında 10 minə yaxın günahsız azərbaycanlı qadın və uşaq qətlə yetirilmişdi”.

Həmin dəhşətləri qələmə alan Əli Dehqaninin “Zərdüşt yurdu Urmiya” əsərində axır çərşənbə günü azərbaycanlıların başına gətirilən müsibətlər haqqında yazılıb: “Amerikanın Urmiyadakı konsulu Mister Şedin hiyləsi ilə tərksilah olunmuş azərbaycanlılarla müzakirədən sonra urmiyalılar aldandıqlarını başa düşdülər. Bu günü Güneş ili 1226-cı il, İsfənd ayının 26-sı - axır çərşənbə (17 mart, 1918) Urmiya şəhərində erməni daşnaqları və çiloları 10 min nəfərə yaxın azərbaycanlı qırğınının şahidiyəm”.

Fars şovinizminin dahi təbliğatçısı kimi tanınan Əhməd Kəsrəvi isə yazırdı ki, Ağa Petrosun başçılığı ilə keçirilən qanlı ixtişaşlar zamanı Salmasda birçə abad kənd belə qalmadı. “Çarəsiz qalan xalq öldürülür, imkanı olanlar qaçıb gedirdi. O gün olmurdu ki, Urmiyada adam qətlə yetirilməsinE Urmi, Salmas, Xoy şəhərləri və bu şəhərlər arasında olan kəndlərdə Azərbaycan türklərinin soyqırımı və talanlarının davam etdiyi bir vaxt Osmanlı Ordusu onların yardımına gəldi və azərbaycanlıları bəlkə də yox olmaq təhlükəsindən qurtardı. Osmanlı ordusu 1918-ci ilin iyun ayında Xoy şəhərinə çatdı. Ordu oradan Salmasa doğru hərəkət edib erməni-aysor birləşmələrinə həmlə etdi. Petros bu döyüşə Urmiyadan topxana da gətirmişdi. Bir neçə günlük müharibədən sonra erməni ordusu dağıldıldı, onlar ailələrini, mal-qaralarını götürüb qaçmağa başladılar...”

Tarixi mənbələrdə ardınca deyilir: “Həmin il Böyük Ermənistan yaratmaq fikrində olan daşnaq partiyasının başçısı Andronik Xoy şəhərini ələ keçirmək və erməni-aysor qoşunlarına birləşmək üçün 8000 nəfərlik hərbi qüvvə ilə Culfa yolundan Xoy şəhərinə tərəf hərəkət etdi. Ermənilər belə qərara gəlmişdilər ki, Xoy şəhərini tutub, onun əhalisini qırandan sonra on min erməni ailəsini burada məskunlaşdırmaqla Azərbaycanın bu hissəsini Ermənistana birləşdirsinlər...

Osmanlı ordusu özünü Salmas tərəfdən Xoya çatdırdı. Bunu eşidən Xoy əhalisi sevinərək müqaviməti gücləndirdi. Nəhayət, Osmanlı qoşunu yetişərək topları dağ başında qurdu, erməni ordusunu atəşə tutdu. Ermənilər qalib olmaq ümidlərini itirib gəldikləri yolla geri dönüb qaçdılar".

**Bu gün Türkiyə və Azərbaycan bütün arxivləri dünyanın üzünə açmalı, “Yeni Müsavat”ın baş yazarı Rauf Arifoğlunun təklif etdiyi kimi arxiv sənədləri tərcümə edib internetdə yerləşdirməli və “soyqırım” bəhanələrini durdurmaq üçün sonuncu silahından yararlanmalıdır. Hər halda bəziləri özünü korluğa vursa da, oxuyanlar, həqiqəti anlayanlar tapılacaq. Həm də yalnız Azərbaycanın şimalında deyil, cənubundakı soyqırım faktlarını da dünyaya yaymaq lazımdır. Bu gün İrandakı Azərbaycan türklərinin səsi eşidilmirsə, biz onların ucalan səsi olmalıyıq. Güneyin başına gətirilənlərdən bəlkə heç güneydəkilərin də xəbəri yoxdur. İndi biriləri qətliam törətdiklərinə görə layiqli cəza alan qulağıkəsik Andronikin tör-töküntülərinin soyqırıma məruz qaldığını iddia edirlərsə, süngüyə keçirilən azərbaycanlı balalarının ahı tutsun beləlləri...**

# "Boynuma xalta salıb meymun kimi gəzdirirlər, dözə bilmirəm"

## "AMAY Abdulla": "1918-ci ildə baş verən soyqırımla bağlı 36 cild cinayət işi olub, mənimlə bağlı 80 cild iş düzəldiblər, amma içində heç nə yoxdur"

**Aprelin 24-də Bakı Ağır Cinayətlər Məhkəməsində "AMAY" ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayev, Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Virtualaz.org saytının məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, prosesdə iş üzrə 13 nəfər zərərçəkmiş şəxs qismində dindirildi.

Rəşad Quliyev, Rasim Cavadov, Yelena Axundova, Allahşükür Qurbanov, Yalçın Muradov, İbrahim Novruzov, Leyla Həmidova, Akif Yusifov, Ülviyyə Nadirova, Səid Balayev və Həsən Nəbiyev ifadələrində 2004-cü ildə "Xudafərin" MMC ilə müqavilə bağladıqlarını, binanın tam kompleksləşdirilməməsini məhkəmənin nəzərinə çatdırdılar.

Dindirilmə zamanı məlum oldu ki, zərərçəkmiş şəxs kimi məhkəməyə dəvət olunan, yuxarıda adları hallanan şəxslərin heç biri ibtidai istintaqda Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində ifadə verməyiblər. Bu da vəkillərin narazılığına səbəb oldu.

**Vəkil Osman Kazımov** bunu prosessual pozuntu adlandırdı. Bildirdi ki, məhkəmə buna qiymət verməlidir: "Sonra dövlət ittihamçısı məhkəmənin sonunda iki cümlə ilə deyəcək ki, ittiham sübuta yetirilib".

Hakim isə məhkəmənin buna sonda qiymət verəcəyini bildirdi: "Dindirilən zərərçəkənlərin məhkəmədə siyahısı var, hamısı da protokola qeyd olunub".

Vəkil Yavər Hüseyn bildirdi ki, istintaqın bu hərəkəti qanunsuzdur. Vəkil Əkbər Bağırov prokurorun bu məsələyə münasibət bildirməsini istədi.

**Dövlət ittihamçısı Fərid Nağıyev isə dedi ki, bütün bu məsələlərə sonda qiymət bildiriləcək:** "Mənim deyəcəyimi nə Osman Kazımov, nə də başqası deyə bilməz. Burada şou yaratmağa ehtiyac yoxdur".

**Osman Kazımov dedi ki, A.Abdullayev qanunsuz olaraq həbsdə saxlanır:** "Bu da şoudur? Prokuror vəsatət qaldırsın ki, bu şəxslər zərərçəkmiş şəxslər siyahısından çıxarılsın".

Prokuror isə cavabında vəkilin ona göstəriş vermək hüququnun olmadığını xatırlatdı.

**Vəkil Osman Kazımov bu işə xitam verilməli olduğunu söylədi:** "Olmayan cinayətə görə bu adamı həbs ediblər".

**Bundan sonra Abdulla Abdullayev qısa çıxış etdi:** "1918-ci ildə baş verən soyqırımla bağlı 36 cild cinayət işi olub, mənimlə bağlı 80 cild iş düzəldiblər, amma içində heç nə yoxdur. Mən bu ölkədə bir nəfərə də xəyanət etməmişəm. Amma başıma xalta salıb meymun kimi gəzdirirlər. Heyvan kimi dörd divar arasında saxlayırlar. Nə qədər deyirəm ki danışmayacam, amma dözə bilmirəm. 8 ildir ki, binanın tikilməməsinin səbəbi elə prokurorluqdur".


Abdulla Abdullayev

Bununla da məhkəmə prosesi aprelin 27-dək təxirə salındı.

Qeyd edək ki, Abdulla Abdullayev və digərləri Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir.

Təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər isə zamindədirlər.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

**İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y" MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.**

# "Avropa" otelindəki qanlı olayın təfərrüatları

## Bankiri öldürən şəxsin vəkilindən sensasion açıqlamalar

**"Avropa" otelində baş verən olayda adı keçən Ruslan Əfəndiyev bu ilin martına qədər Beynəlxalq Bankın prezidenti Cahangir Hacıyevin şəxsi mühafizə xidmətinin rəisi olub. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, C.Hacıyev vəzifəsindən çıxarılandan sonra R.Əfəndiyev də işini itirib və aktiv şəkildə məşqçiliyə başlayıb. Aprelin 22-də "Avropa" otelində məlum qətl hadisəsi də həmin məşq zamanı yaşanıb.**

Otelinin idman zalında Ruslan Əfəndiyevə və Azər Məmmədova bıçaq xəsarətləri yetirilib. A.Məmmədov hadisə yerində ölüb, R.Əfəndiyev isə həkim müayinəsindən sonra sərbəst buraxılıb. A.Məmmədov "Zaminbank"ın filial müdiri olub. Digər bıçaqlanan R.Əfəndiyev isə idman ustası, qarışıq döyüş idman növü üzrə məşqçidir. Olayla bağlı ilkin məlumatlarda bildirilirdi ki, A.Məmmədov otelin idman zalında məşq edərkən Sənan Quliyevlə otelin idman zalının qarışıq döyüş növləri üzrə məşqçisi R.Əfəndiyev arasında mübahisə yaranıb. A.Məmmədov onları sakitləşdirməyə çalışıb. S.Quliyev bıçaqla məşqçiyə və Azərə zərbələr vurub və hadisə yerindən qaçıb.

Sonradan məlum olub ki, hadisə baş verən gün Sənan Quliyev tək olmayıb. Onunla birlikdə Mövlud adlı dostu da orda olub.

### Ruslan Əfəndiyev vəzifəli şəxsin mühafizəsinin rəisi olub

Mövlüdun vəkili Cavid Rzazadə "Yeni Müsavat"ın əməkdaşına hadisənin təfərrüatlarını danışıb. Vəkil işdə adı keçən Ruslan Əfəndiyevin uzun illər "Beynəlxalqbank" prezidenti Cahangir Hacıyevin mühafizə xidmətinin rəisi olması haqda bilgili olmadığını deyib. Bildirib ki, adi bir məsələnin bu səviyyəyə çatmasında R.Əfəndiyevin rolu var: "Mətbuatda tamamilə yanlış olaraq məlumat yayılıb ki, Sənan Quliyev vəzifəli şəxsin mühafizəçisi olub. Mövlud və Sənan dindar uşaqlardır. Onlar vəzifəli şəxs deyillər və heç vaxt da vəzifəli şəxsin mühafizəsinin rəisi olmayıblar. Amma Ruslan Əfəndiyev vəzifəli şəxsin mühafizəsinin rəisi olub. Mətbuatda məsələnin bu cür baş-ayaq yayılması təsadüfi deyil. Görünür, Sənan və Mövludu ictimaiyyətə arxalı şəxslər kimi təqdim etməklə barələrində yanlış rəy formalaşdırmaq istəyirlər.

Ruslan Əfəndiyev vəzifəli şəxsin mühafizəsinin rəisi olduğundan kifayət qədər böyük çevrəsi var. Hesab edirəm ki, hazırda istintaq təcridxanasında olan Mövludun kimliyi haqda bilgi alan Ruslan Əfəndiyev onun həyatına təhlükə yarada bilər".

### Ruslan Mövludun boğazından yapışıb boğarkən...

**Vəkil baş vermiş bu qanlı hadisənin əsas səbəbkarının R.Əfəndiyevin olmasını istisna etmir:** "Mövludla Sənan oteldəki məşq zalına ilk dəfə gediblər. Onlar zalda güləşərkən Ruslan Əfəndiyev bir neçə tələbəsi ilə zala girib. Sənanın ayağında "barsovka"(idman ayaqqabısı) olub. Ruslan da deyib ki, tatami üzərinə o ayaqqabı ilə çıxmayın. Bunlar üzrxahlıq edib deyiblər ki, birinci dəfədir gəlmişik, bilmədik. Sonra gedib digər zalda dəmir alətlərlə məşq ediblər. Hamama gedəndə Mövlud idman zalından verilən ayaqqabı ayağında olarkən qayıdıb tataminin qırağından dəsmalı götürüb. Bu dəfə Ruslan deyib "sən nə "ponyatkasız" adamsan, bayaq dedim axı ayaqqabı ilə keçmə". Mövlud da deyib ki, tatamiyə oteldən verilmiş birdəfəlik ayaqqabı ilə də çıxmağın qadağan olduğunu bilmirdim.

**Növbəti dəfə də təsadüfdən şkafın açarları zalda qalıb. Mövlud açarı götürmək üçün zala girəndə Ruslan Əfəndiyevlə üz-üzə gəlir.** Üzrxahlıq edib ki, yenə bura gələcəyik, aramızda qanqaraçılıq olmasın. Ruslan Əfəndiyev "bir də belə qanacaqsızlıq eləməyin" dedikdə, Mövlud bildirib ki, "biz qanacaqsız deyilik, bizi qanacaqsız hesab edən özü qanacaqsızdı". Bu zaman Ruslan Mövludun boğazından yapışıb boğarkən, Mövlud müqavimət göstərməyə çalışıb. Ruslanın boyu 1 metr 80-dən çoxdur. Mövludun isə 1.69 boyu var. Ruslan illərin idman ustasıdır, 1971-ci ildəndir. Mövlud isə yenicə məşqə başlamaq istəyən, ondan çəkidə və boyda balaca olan şəxsdir. Mövlud Ruslanın əlindən canını qurtarmaq istəsə də, buna nail ola bilməyib. Üstəlik Ruslanın tələbələri də onu döyməyə başlayıblar. Sənan isə ora sonradan gəlib. Orada heç bir tərəfdən söyüş söyən olmayıb. Ruslan Mövludla savaşanda onun tələbələri də köməyə gəlib. Mərhum Azər Məmmədov da onların içərisində olub. Sənan görüb ki, 4-5 cüssəli adam Mövludu döyür. Mövludu da elə Azər Məmmədov döyüb, onun burnu sınıb, gözü göyərib. Sənan qorxub ki, onlarla bacara bilməyəcək, onu da döyəcəklər".

**Vəkil deyir ki, Sənan üzərində gəzdirdiyi qatlanan bıçağı çıxarıb və Mövludu döyənləri qorxutmağa çalışıb. Düşünüb ki, qarşı tərəfdə olanlar bıçağı görüb qorxub Mövluddan əl çəkərlər:** "Amma onlar Mövludu buraxmayıblar, nəticədə Sənan bıçaqla bir neçə nəfəri bədənini cızıb. Ruslanın da qolu cızılıb. Həmin vaxt Mövludu döyən şəxslər Ruslan, Azər Məmmədov və digər iki şəxs olub".


Azər Məmmədov və Ruslan Əfəndiyev

**Vəkil deyir ki, otelin daxili təhlükəsizlik kameraları hadisənin necə baş verdiyini qeydə alıb:** "İstintaq orqanı da qeyd edib ki, həmin video var və videodan Sənanın hadisəni törətməsi, Mövludun döyülməsi qismən görünür. Həmçinin Azər Məmmədovun da hadisəyə müdaxilə etməsi, Sənanı yumruqla vurması və təpikləməsi görünür. Ruslanda və digər şəxslərdə xəsarətlər kəsicidir. Azər Məmmədovda isə kəsici olmaqla yanaşı ürəyin üst pərdəsi cırılıb. Sənan da, Mövludda Azərin ölümünə görə çox peşmandırlar və onun ölümünə görə özlərini bağışlaya bilmirlər".


Sənan Quliyev

**Vəkil olayın baş verməsində məşqçini günahlandırır:** "Olayın baş verməsinin səbəbkarı Ruslandır və ona heç bir ittiham verilməyib. Aranı qarışdıran Ruslandır. O, məşqçidir, əgər mübahisə yaransa belə həmin mübahisənin sakitləşdirilməsinə səy göstərməli idi. Amma Ruslan Əfəndiyev bunun əvəzinə ondan 2 dəfə üzr istəyən Mövludu döyməklə aranı qızışdırıb. Üstəlik tələbələrini də ciddi bir səbəbi olmayan və özü tərəfindən başladılan mübahisəyə qarışmalarına imkan verib. Allah Azər Məmmədova rəhmət eləsin, ailəsinə səbir versin. Amma onun ailəsinin də bilməsini istəyirik ki, təqsirləndirilən şəxslərin vermiş olduğu ilkin ifadələr onu deməyə əsas verir ki, hadisənin başlanması Ruslan Əfəndiyevdən qaynaqlanır. Sənan və Mövlud da, Azər kimi Ruslan Əfəndiyevin lüzumsuz iradlarının qurbanıdırlar".



**C.Rzazadə qeyd edib ki, Sənan Quliyevi və Mövludu polisə özləri təhvil veriblər:** "Onlar Azərin ölümünü mətbuatdan oxuyub öyrəniblər. Hər ikisi aprelin 23-də səhər tezdən Nəsimi Rayon Polis İdarəsinə gedib təslim olublar".

**Səbayel Rayon Məhkəməsinin qərarı ilə Sənan Quliyev 4, Mövlud isə 3 ay müddətinə həbs olunublar.**

❑ E.MƏMMƏDƏLİYEV

# Redaktorlardan Bəxtiyar Sadıqova cavab gəldi

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov bu günlərdə ölkə mətbuatını və jurnalistikasını tənqid edən "Yolunu azmış peşə" adlı məqalə ilə çıxış edib. Baş redaktor məqalədə jurnalist peşəkarlığının aşağı düşməsi, hətta tam itirilməsi təhlükəsi ilə üzbəüz qaldığını qeyd edib.**



**Elbrus Ərud:** "Belə çıxır ki, jurnalistikanın "xarab olması"nda onun da iştirakı, əli var"



**Aynur Camal:** "Ölkə mətbuatı ona verilən söz azadlığından aşırı dərəcədə istifadə etməyə başlayıb"



**Xalid Kazımlı:** "Bəxtiyar Sadıqovun mediada bir sıra yanlış saydığı təmayülləri tənqid etməsilə razıyam"



**Aydın Quliyev:** "Jurnalistikanın hazırkı durumu barəsində bədbin hisslərə qapılmaq doğru deyil"

Sitat: "Ölkədə yaradılan söz azadlığı mühiti faktiki olaraq jurnalist özbaşınalığına rəvac verib Bu peşəni özləri üçün "çörək ağacı" seçənlər jurnalistikaya dair ən adi bilgilərə və peşə vərdişlərinə belə yiyələnməyə can atmırlar. Unudulmamalıdır ki, mənəvi dəyərlər və milli maraqlar heç zaman biznes maraqlarına qurban verilməli deyil.

Hazırda Azərbaycan jurnalistlərinin böyük bir qismi (və onların rəhbərlik etdiyi qəzetlər) kompasını və istiqamətini itirərək dəryada qalan, hansı səmtə gedəcəyini kəsdirə bilməyən gəmi vəziyyətindədir. Milli və tarixi ənənəyə söykənməyən, "Avropa və ya demokratik prinsiplərə" yiyələndiklərini güman edərək qaz yerişi yerimək istəyənlər axsamağa başlayıblar".

"Azərbaycan" qəzetinin baş redaktorunun tənqidi fikirləri mətbuat nümayəndələri arasında birmənalı qarşılanmayıb.

Bu barədə "Yeni Müsavat"a danışan **qafqazinfo saytının baş redaktoru Elbrus Ərud** Bəxtiyar Sadıqovun fikirlərini absurd və səhv adlandırdı: "Bu, onun öz fikri, öz prizması, yanaşma tərzi, dünyagörüşüdür. Bu, onun gördüyü jurnalistikadır. Mətbuat heç də bərbad vəziyyətdə deyil. Jurnalistikanın tənəzzülə uğradığını və yaxud onun inkişafını 5-6 dələduza görə qiymətləndirmək absurddur. Bəxtiyar Sadıqov unudur ki, özü də bu jurnalistikada iştirak edir, belə çıxır ki, jurnalistikanın "xarab olması" prosesində onun da payı var".

**Elbrus Ərud Bəxtiyar Sadıqovun "mətbuatımızda milli maraq və dəyələr unudulur" sözlərinə də münasibət bildirdi:** "Mətbuatda milli mənəvi dəyərlərin itirilməsində jurnalistikanı ittiham etməyi də anlaşılan deyil. Bura jurnalistikadır, Mədəniyyət Nazirliyi deyil axı. Milli mənəvi dəyərlərlə xüsusi təşkilat və qurumlar var ki, onlar məşğul olmalıdır, jurnalistika isə xəbərlərlə məşğul olur. Azərbaycan mətbuatı, jurnalistikası Azərbaycan cəmiyyətinin virtual formasıdır. Bu gün Azərbaycan hansı səviyyədədirsə necədirsə, təmsilçiliyi də o cürdür.

Doğrudur, mətbuatımızda çatışmayan cəhətlə çoxdur. Buna baxmayaraq jurnalistikamız inkişaf edir, biz yatmamışıq. Dünya ictimaiyyətində nə baş verirsə, bacardığımız qədər cəmiyyəti tez bir zamanda məlumatlandırmağa çalışırıq. Azərbaycan mediası dünya mətbuatı ilə ayaqlaşma iddiasındadır".

**Baş redaktor mətbuatın cəmiyyətdəki rolundan danışdı:** "Bu günlərdə mətbuatımız ədliyyə sistemində baş verən hadisələrdə, məlum "Lamiyyə olayı"nda, generalın oğlunun vətəndaşı bıçaqlaması prosesində nə qədər güc sahibi olduğunu göstərdi. Demək ki, jurnalistikanın vaxtında məsələlərə aydınlıq gətirərək işıqlandırmaq, onu həll etmək gücü var. Bu göz qabağındadır".

**"Gündəlik Teleqraf" qəzetinin baş redaktoru Aynur Camal** mətbuatda ciddi cəbhələşmə prosesi getdiyini, çox az sayda medianın müstəqil olduğunu dedi: "Bəxtiyar Sadıqovun fikirləri ilə tamamilə razıyam. Bu gün mətbuatımız obrazlı şəkildə desək, öz qara günlərini yaşayır. Belə ki, artıq ölkə mətbuatı ona verilən söz azadlığından, demokratiyadan aşırı dərəcədə istifadə etməyə başlayıb. Bu da çox ciddi problemlərə gətirib çıxardır. Məsələn, bu sahədə çox ciddi cəbhələşmə getdiyinin şahidi oluruq. Yeni meydanda müxalifət və iqtidar mətbuatı var, müstəqil media çox azdır".

**Aynur Camal şantaj yolu ilə qazanc əldə etmək istəyən jurnalistlərdən də danışdı:** "Çox təəssüf ki, "reket" kimi fəaliyyət göstərən jurnalistlərimiz də var. Əslində bu mətbuata dəxli olmayan bir amildir. Bu əqidə ilə yaşayanlar çox asan yolla istədikləri vaxt sayt yaradıb vəzifəli, nüfuzlu insanlara hədə-qorxu gələrək onların şərəf və ləyaqətini alçaldacaq yazılar verəcəkləri ilə şantaj edərək, pul qazanmağa çalışırlar. Bu cür saytları dərindən araşdıranda məlum olur ki, ümumiyyətlə, onların nə redaksiyaları, nə də jurnalist kollektivləri var, saytda yalnız bir işçi çalışır. Qeyd etdiyim bu faktlar mətbuatımız üçün bir ləkədir".

**Baş redaktor problemlərdən çıxış yolu barədə təklifini də bildirdi:** "Qanunvericilikdə dəyişikliklər olmalıdır ki, hər yerindən qalxan sayt yarada bilməsin. Başqa sahədə uğur qazana bilməyən, hətta ali təhsili belə olmayan insanlar bu sahədə necə çalışdıqları məlum deyil. Buna görə də peşəkar jurnalistika ilə məşğul olan, Azərbaycan mediasını öz şərəf və namusu hesab edən insanlar artıq həyəcan təbilini çalmalıdırlar. Birlikdə toplaşaraq müzakirələr, diskussiyalar vasitəsilə çıxış yollarını axtarıb tapmalıyıq. Müvafiq orqanlar da bu sahədə bizə yardımçı olmalıdır".

**"Bakı Xəbər"in baş redaktoru Aydın Quliyev** ümumən ölkə mətbuatını inkişafa meylli olduğunu qeyd etdi: "Bu sahədəki problemlər danılmazdır və bu özünü qabarıq şəkildə göstərməkdədir. Xüsusən də jurnalistlərin sosial iqtisadi durumu o qədər də qənaətbəxş deyil. Lakin unutmaq olmaz ki, dövlət mətbuatın inkişafı üçün bir sıra tədbirlər həyata keçirir. Keyfiyyət baxımından isə deyə bilərəm ki, ölkə mətbuatı inkişaf istiqamətindədir. Yeni bu sahədə hazırkı durum barəsində bədbin hisslərə qapılmaq doğru deyil".

**Musavat.com saytının baş redaktoru Xalid Kazımlı** "Azərbaycan" qəzetinin rəhbərinin mətbuat və jurnalistika haqqında dediyi tənqidlərlə razılaşdığını bildirdi. Onun sözlərinə görə, son zamanlar mediada yer alan materiallarda ciddiyyət və mötəbərlik son dərəcə azalıb: "Nə qədər öz işi ilə deyil, yalnız telekanallarda və çap mediasındakı neqativlikləri tənqid etsə də, prinsipcə, Bəxtiyar Sadıqovun bir sıra qəzetləri, xüsusilə də mediada olduqca yanlış saydığı təmayülləri tənqid etməsi ilə razıyam. Gerçəkdən də son vaxtlar mediada yer alan materiallarda ciddiyyət və mötəbərlik son dərəcə azalıb. Əvvəllər "sensasiya dalınca qaçmaq" kimi bir ifadə işlədərdilər. Hazırda çoxları ucuz sensasiya dalınca qaçaraq onu ötüb keçiblər. Bu, artıq "stəkanda fırtına yaratmaq", yaxud "milçəyi şişirdib filə döndərmək" mərhələsindən də keçib. Bu gedişlə vəziyyət daha pis olacaq. Ciddi sayt və qəzetlərin ümumi tendensiyanın cazibəsinə qapılıb öz ciddiyyət və mötəbərliklərinə zərbə vurmaq təhlükəsi də var".

❑ **Xalidə GƏRAY**

# 27 apreldən başlayan işğal



**Azər RƏŞİDOĞLU**

**Üzüntülü bir ay yaşayırıq. Aprel onsuz da ağır ay idi, üstəlik, bu arada iki həmkarımızın, yaxın dostumuzun və əqidədaşımızın ailələrinə, ələlxüsus da vicdan məhbusu Tofiq Yaqubluya üz verən ağır itkilər onu bir az da qəmli-kədərli elədi...**

*****

Zatən, 100 ildir türklərə qarşı əsassız və həyasız iddialarla yaşayan mənfur ermənilər onsuz da aprel ayını az qala, özününküləşdirmiş, matəm ayına çevirmişdilər, bu yandan da Avropa Parlamenti kəmfürsət millətin əlinə daha bir bəhanə verdi - aprelin 24-ünü Avropa məkanında "hüzn günü" kimi qeyd eləmək haqda qərar çıxarmaqla.

Təbii, xristian təəssübkeşliyindən qaynaqlanan bir qərar idi bu. Ermənilər xristian dinin daşıyıcısı olmasaydılar, heç kəsin yadına düşməyəcək, "it dəftəri"ndə belə adları olmayacaqdı, nə Fransua Oland, nə də Putin aprelin 24-də İrəvana ayaq belə basmayacaqdılar.

Necə ki, fransızların soyqırıma məruz qoyduğu ərəblər (əlcəzairlilər), yunanların və ermənilərin ötən əsrdə qırıb-çatdıqları yüz minlərlə Türkiyə və Azərbaycan türkü, rusların qətliama və deportasiyaya məruz qoyduqları Qafqaz xalqları (çeçenlər, çərkəzlər, qaraçaylılar və s), habelə Krım tatarları və Azərbaycan türklərinin faciəsini Qərb, Avropa on illərdir görməzlikdən gəlir.

**Yeni bir araşdırmaçının sərrast qeyd elədiyi kimi, arxivlər açılsa, əslində türklər ermənilərdən yox, ermənilər türklərdən üzr istəməli olarlar. Eləcə də fransızlar genosidə məruz qoyduqları ərəblərdən, ruslar Qafqaz xalqlarından və Krım tatarlarından üzr diləmək zorunda qalarlar. Hələliksə, fələyin çarxı tərsinə fırlanır...**

*****

Qayıdaq, aprelin miras qoyduğu ağır mənəvi-siyasi yükə. Bu ayda sözsüz ki, bizim üçün Çanaqqala zəfəri kimi fərəhli təqvim istisnadır. Ancaq qara 27 aprel də var. Nə vaxt ki, müsəlman Şərqində ilk demokratik cümhuriyyət - müstəqil Azərbaycan Demokratik Respublikası bolşevik Rusiyasının hərbi təcavüzü nəticəsində süqut edib. Həmin süqutun, daha doğrusu, işğalın altını 24 ildir müstəqil olsaq belə, hələ də çəkirik.

Hələ də Cümhuriyyətin varisi olan indiki Azərbaycan Respublikası heç olmasa, Sovetlər Birliyindəki ərazisini, öz sərhəd bütövlüyünü təmin edə bilməyib. Hələ də Azərbaycan erməni-rus işğalı ilə üz-üzədir. Ona görə ki, bu ittifaq, lap dəqiqi, Moskva təkcə Cümhuriyyətdən Zəngəzuru qoparıb Ermənistana peşkəş etməklə kifayətlənməyib, eyni zamanda Azərbaycan SSR-in "bətni"nə DQMV adlı gec partlayan mina qoymaqla 1988-ci ildən başlayan yeni fəlakətlərə, dağıntılara, məhrumiyyətlərə zəmin yaradıb.

*****

Beləcə, ötən əsrin əvvəllərindən, 20-ci illərdən başlayan işğal davam edir. Çünki son yüz ildə dost-düşmənlərin səfində ciddi dəyişiklik baş verməyib. Bu gün də ermənin arxasında onun ənənəvi və sadiq havadarları - Rusiya və Fransa (Avropa) dayanıb. Bu gün də dünya Azərbaycan ərazilərinin işğalını görməzlikdən gəlir, erməni hansı cinayətləri törətsə belə, Xocalı soyqırımına imza atsa belə, Qərb dünyası onun başını sığallayır, Azərbaycandan çox Ermənistanın dərdinə şərik olur, erməniyə, qahmar çıxır, ona siyasi-mənəvi havadarlıq edir.

Əslində bu, heç havadarlıq da deyil. Daha çox - 100 il öncəki kimi, ermənidən yenə türk dünyasına, Türkiyəyə və Azərbaycana qarşı sınanmış maşa, alət qismində istifadə eləməkdir. Satılan varsa, alan niyə olmasın ki?

**Bu alverin bitdiyi yerdə, Azərbaycana, qardaş ölkəyə qarşı ermənidən alət kimi yararlanan məkrli güclərin və mərkəzlərin işğalçılıq siyasətindən bezdikləri məqamda 27-də başlayan işğal da bitəcək.**

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015

# "Soyqırımı" tanıyan dövlətlərin soyqırımlı tarixi

## 24 apreldə saxta erməni iddialarına dəstək verən dövlətlərin tarixi gerçək genosid cinayətləri ilə zəngindir...





**24 aprel ərəfəsi dünyanın bir sıra nüfuzlu dövlətləri və qurumları 1915-ci il olaylarını "soyqırımı" kimi tanıdılar. Roma Papası, daha sonra Avropa Parlamenti, Avstriya, dünən isə Almaniya 100 il əvvəl Osmanlı dövləti ərazisində baş verən hadisələri "erməni soyqırımı" kimi qeyd etdilər.**

Əlbəttə, ədalətsiz qərardır və tarix, fakt və sübutlar 100 il əvvəl məqsədli bir soyqırımı baş vermədiyini, Osmanlı dövlətinin sadəcə, müharibə dövründə döyüşən orduya problem yaradan, məqsədli çaxnaşmalar təşkil edən əhalinin köçürülməsini həyata keçirib. Bu isə heç bir halda "soyqırımı" hesab edilə bilməz.

Bu mübahisəli tarixi ermənilərin təkidi və məqsədli lobbi fəaliyyətləri, o cümlədən öz dövlət maraqları naminə "soyqırımı" kimi tanıyan ölkələrin sayı az deyil. Son olaraq Almaniya və Avstriyadan başqa əvvəlki illərdə bir sıra nüfuzlu dünya dövlətləri bu təqvimi "soyqırımı" adlandırıb. O cümlədən, İsveç parlamenti - 12 mart 2010-cu ildə səsvermə ilə 1915-ci hadisələrini "soyqırımı" olaraq tanıyıb.

**Uruqvay** - 1965, 2004, 2005-ci illər olmaq üzrə üç dəfə qondarma "erməni soyqırımı" iddialarını qəbul edib.

**Yunan Kipri** - 1982-ci ildə "soyqırımı" iddialarını qəbul edib.

**ABŞ-ın 41 ştatında "erməni soyqırımı"nın olduğu qəbul edilib.** Əsassız "soyqırımı" tanıyan ştatlar bunlardır: Alyaska, Arizona, Arkansas, Kaliforniya, Kolorado, Kentukki, Konnektikut, Delaver, Florida, Corciya, Cənub Karolina, Aydaho, İllinoys, Kanzas, Şimal Dakota, Şimal Karolina, Luiziana, Men, Merilend, Massaçusetts, Miçiqan, Minnesota, Missuri, Montana, Nebraska, Nevada, Nyu Hempşir, Nyu Cersi, Nyu Mexiko, Nyu York, Ohayo, Oklahoma, Oreqon, Pensilvanya, Rod Aylend, Tennessi, Yuta, Vaşinqton, Vermont, Virciniya, Viskonsin.

**Argentina** - "erməni soyqırımı"nı tanıma qanunu 1985-ci ildə qəbul edilib.

Rusiya - əvvəl 1995-ci ilə, sonra da 2005-ci ildə "soyqırımı" qəbul edib.

**Kanada** - 1996, 2000 və 2004-cü illərdı qondarma sənəd gündəmə çıxarılıb və hər üçündə də qəbul edilib.

**Yunanıstan** - 1996-cı ildə "soyqırımı" tanıyıb.

**Livan** - Livanda yaşayan erməni lobbisinin gərgin səyləri nəticəsində 1997-ci ildə və 2000-ci ildə "soyqırımı" tanınıb.

**Belçika** - 1998-ci ildə qondarma "erməni soyqırımı"nı tanıyıb.

**İtaliya** - 2000-ci ildə ermənilərin "soyqırımı"na uğradığını qəbul edib.

**Vatikan** - İtaliya ilə eyni ildə, 2000-ci ildə əsassız iddianı tanıyıb.

**Fransa** - 1998-ci ildə "erməni soyqırımı"nı tanıyıb.

**İsveçrə** - "soyqırımı" iddialarını 2003-cü, Slovakiya və Hollandiya - 2004-cü, Polşa, Almaniya, Venesuela, Litva 2005-ci ildə qəbul edib. Çili isə 2007-ci ildə saxta erməni iddialarını qanuniləşdirib. Birləşmiş Krallığa daxil olan Uels, Şotlandiya və Şimal İrlandiya - 1915-ci il hadisələrini "soyqırımı" olaraq qəbul ediblər.

Bundan başqa, BMT-nin Ayrı-seçkiliyin Önlənməsi və Azlıqların Qorunması Alt Komissiyası, Avropa Şurası, Avropa Parlamenti, Dünya Kilsələr Şurası "erməni soyqırımı" iddialarını təsdiqləyən qərarlara imza atıblar.

Əlbəttə, yuxarıda bu mövzunun mübahisəli olduğu, alimlər tərəfindən sübuta yetirilmədiyi, arxivlərdəki materiallara zidd olduğunu qeyd etdik. Ancaq aydın məsələdir ki, bir sıra dövlətlər bu qərarı "tarixi həqiqətin təsdiqi" olaraq deyil, Türkiyəyə təzyiq vasitəsi, məhz Türkiyə hesabına ermənilərin müdafiə etmək, onlara üstün haqq tanımaq məqsədilə qəbul edib. Yəni bu qərarların bir çoxunun arxasında siyasi maraqlar dayanır.

Lakin eyni zamanda bir həqiqət də var. Saxta soyqırımı iddialarını təsdiq edən ölkələrin özlərinin tarixində sübuta yetirilmiş, tarixi sənədlərlə təsdiqini tapmış soyqırımı və kütləvi qırğın hadisələri olub.

Məsələn, "soyqırımı" iddiaları ilə bağlı ermənilərin ən yaxın dəstəkçisi və aprelin 24-də İrəvanda prezident səviyyəsində təmsil olunan Fransa dövləti çox da uzaq olmayan keçmişdə, 20-ci əsrin ortalarında Əlcəzairdə 1,5 milyon insanı qətlə yetirib. Afrikanın demək olar ki, yarısını 19-cu əsrdə işğal edən fransızlar müqavimət göstərən 10 minlərlə yerli insan öldürüblər. Benin, Çad, Cibuti, Qabon, Qana, Kamerun, Komor adaları, Mavritaniya, Niger, Seneqal, Tunis, o cümlədən Suriya, Livan və nəhayət, ən dəhşətli və sübut olunmuş qətliamların törədildiyi Əlcəzair.

Fransa ordusu Əlcəzairi 19-cu əsrin əvvəlində işğal edib. Əlcəzair 1830-cu ildən 1962-ci ilə qədər, 132 il Fransanın işğalı altında olub. Bu ölkədə bir neçə dəfə baş verən xalq üsyanları hər dəfə güclü ordu və texnikaya sahib Fransa qüvvələri tərəfindən amansızlıqla yatırılıb. 1954-cü ilin noyabrından 1962-ci ilin martına qədər davam edən milli azadlıq savaşı zamanı bütün mütərəqqi dünyanın gözü qarşısında Fransa 1,5 milyon əlcəzairlini qətlə yetirib. Bu, təxminən hər gün 550 nəfərdən çox insanın öldürülməsi deməkdir. Fransanın ilk nüvə silahı sınaqları da (!) məhz Əlcəzairdə keçirilib.

Almaniya, Rusiya kimi ölkələrin 20-ci əsrdə törətdiyi insan ölümləri barədə xüsusi qrafa açmağa ehtiyac yoxdur. Hər iki dünya müharibəsi və aralıq dövrlərdə, eləcə də daxildə baş verən kütləvi sürgünlər zamanı milyonlarla insan öldürülüb və ya köçürülmə nəticəsində faktiki olaraq ölümə buraxılıb.

Aprelin 24-də İrəvana səfər edənlər arasında Serbiya prezidenti də olub. Tomislav Nikoliçin həmvətənləri olan Serbiya və Bosnya serbləri 1992-95-ci illərdə Bosniyada soyqırımı törədib və beynəlxalq insan haqları təşkilatları tərəfindən soyqırımı kimi qəbul olunan bu hadisələr nəticəsində yalnız Serebrinitsa şəhərində 15 mindən artıq dinc, günahsız insan yalnız müsəlman olduğu üçün qətlə yetirilib.

2000-ci ildə "erməni soyqırımı"nı tanıyan İtaliya dövləti 19-cu əsrin sonundan 20-ci əsrin ortalarına qədər Şimali Afrikada on minlərlə dinc insana qarşı qətliam törədib. Liviya, Efiopiya kimi ölkələri işğal edən italyan ordusu müqavimət göstərən, etiraz edən bütün insanları məhv edib. 1935-ci ildə Həbəşistana hərbi yürüş edən İtaliya ordusu bu ölkəni 1 ilə tamamilə işğal edir.

1998-ci ildə saxta erməni iddialarını "soyqırımı" kimi tanıyan Belçika dövlətinin "ayağında" yüz minlərlə Afrikanın məhv edilmiş həyatı yazılıb. Afrika Konqosunda milyonlarla insan Belçika Krallığı üçün kauçuk meyvəsi toplanmasına cəlb olunub və bu dövrdə kauçuk toplaya bilməyən və ya imtina edən yüz minlərlə (bəzi rəqəmlərə görə 10 milyon) insan öldürülüb.

"Erməni soyqırımı" iddialarını iki dəfə - 2000 və 2015-ci ildə - tanıyan Vatikan isə 1095-ci ildə etdiyi çağırışla başlatdığı səlib yürüşləri zamanı Yaxın Şərqdə yüz minlərlə insanın öldürülməsinin fətvasını verib.

**Yuxarıda sadalanan ermənilərin saxta iddialarını rəsmiləşdirən dövlətlərin tarixində yer almış soyqırımı və kütləvi qətllərin ən qabarıq və yaddaqalan detallarıdır. Tarix günahsız insan qətliamları ilə "zəngindir". Dünya isə ədalətli deyil...**

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Azərbaycan Kürdləri İctimai Birliyi erməniləri kürd düşməni elan etdi

## **Tahir Süleyman:** "Təkcə 1897-ci ildə 40 min türk və kürd ermənilər tərəfindən Türkiyənin Xanasor əyalətində qətlə yetirilib"

**Azərbaycan Kürdləri İctimai Birliyinin sədri, Azərbaycanda azərbaycanca və kürdcə çap edilən "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman Şimali İraq Kürd Administrasiyasının baş şəhəri olan Ərbildə keçirilən dünya kür təşkilatları konfransında iştirak edir.**



Bir neçə gündür ki, Ərbildə olan olan Tahir Süleyman dünya kürd təşkilatlarının liderləri və təmsilçiləri qarşısında çıxışı zamanı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Xocalıda dinc Azərbaycan vətəndaşlarına ermənilərin divan tutması, Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlı və kürd əhalinin tarixi dədə-baba torpaqlarından zorla deportasiya edilməsi, bu deportasiya zamanı ermənilərin azərbaycanlılarla yanaşı, kürdləri də qətlə yetirməsi barədə faktlara əsaslanan məlumatlar verib. Ərbilin Səlahəddin Universitetində keçirilən konfransda T.Süleyman ermənilərin Türkiyənin Xanasor əyalətində törətdiyi cinayətləri konfrans iştirakçılarının diqqətinə çatdırıb. O, tarixi mənbələrə əsaslanaraq bildirib ki, həmin əyalətdə 1897-ci ildə 40 min türk və kürd ermənilər tərəfindən qətlə yetirilib.

**Tahir Süleymanın "Yeni Müsavat"a verdiyi xəbərə görə, konfrans dünya ermənilyinin qondarma "erməni soyqırımı" ilə bağlı hay-küy qopardığı günlərə təsadüf etdiyindən o, çıxışında və keçirdiyi görüşlərdə tarixdə ermənilərə qarşı soyqırım olmadığı olmadığını, Türkiyədə hələ də on minlərlə erməni mənşəli insanın sərbəst yaşadığını, əslində ermənilərin 20-ci əsrin əvvllərindən indiyə qədər dəfələrlə türklərə, Azərbaycan türklərinə, kürdlərə qarşı böyük miqyaslı qətliamlar həyata keçirdiyini, terror təşkil etdiyini faktlar sadalamaqla qeyd edib:** "Mən faktlara əsaslanaraq qeyd etdim ki, ermənilər Azərbaycanın kürdlərin kompakt yaşadıqları ərazilərini də işğal edib, orada dinc əhaliyə qarşı qırğınlar törədiblər. Ermənilərin türklərlə yanaşı kürdlərə də həmişə düşmən kimi yanaşdığını təsdiq eləyən çoxsaylı faktlar var. Ermənilər 20-ci əsrin əvvəllərində Osmanlı ərazisində çoxlu sayda kürd kəndlərinə hücumlar təşkil edib, kəndlərdə kürd əhalini, qadınları, qocaları, uşaqları işgəncə ilə qətlə yetiriblər. Mən bütün çıxışlarımda, görüşlərimdə dünya kürdlərinə bəyan edirəm ki, Azərbaycan kürdləri ermənilərin iç üzünü, əsl sifətini, kürdlərə də düşmən kəsildiyini yaxşı bilir, dünya kürdləri də ermənilərin bizə düşmən kimi yanaşan müxənnət, məkrli millət olduğunu bilməlidir, həmişə ermənilərdən məsafə saxlamalıdır. Biz erməni yalanlarına uymamalıyıq. Ermənilər, dünyada ermənilərə dəstək verən güclər Türkiyəni və Azərbaycanı zəiflətmək və bu ölkələrdə yaşayan bütün müsəlmanları köləyə çevirmək məqsədi güdürlər. "Erməni soyqırımı" hay-küyü də bunun üçündür".

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015



# İşğalçı Rusiyaya "qamçı", işğalçı Ermənistana "kökə..."

## Qərbin saxta genosid iddiasına dəstəyi elə Qarabağın işğalına verilən dəstək anlamındadır; İrəvanın 24 aprel mərasimlərində güddüyü iki mühüm hədəfdən biri Azərbaycan ərazilərinin işğalına bəraət almaqdırsa, Bakı danışıqların formatını dəyişməyə niyə də çalışmasın?

**Ermənistan prezidenti Serj Sərkisyan uydurma soyqırımın 100 illiyi ərəfəsində bir qrup xarici jurnalistə verdiyi müsahibəsində Azərbaycanı Dağlıq Qarabağa dair sülh danışıqlarını uzatmaqda ittiham edib. Düşmən ölkə başçısı bildirib ki, guya Bakı Minsk Qrupu həmsədrlərinin təklif elədiyi "Madrid prinsipləri"ni bildiyi kimi təqdim və şərh edir, həmçinin, nizamlama prosesinə əngəllər yaradır, son vaxtlar isə danışıqların formatını dəyişmək istəyir.**




**Sitat: "Ötən il biz Azərbaycan prezidenti ilə Rusiya və Fransa prezidentlərinin, ABŞ dövlət katibinin vasitəçiliyi ilə üç görüş keçirdik. Həmin görüşlər zamanı Azərbaycan prezidenti demək olar açıq şəkildə dedi ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bizə təklif etdiyi nizamlama prinsiplərini qəbul etmir. Həmsədr ölkələrin prezidentlərinin bəyanatlarında əksini tapan prinsiplər və elementlər "Madrid prinsipləri" adı alan sənədin özəyini təşkil edir: problem güc tətbiqi olmadan nizamlanmalı, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmə hüququna əsaslanmalıdır".**

Sərkisyanın sözlərinə görə, bu prinsiplər əsasında münaqişənin həllini tapmaq olar: "Və mühüm məqam budur ki, həmsədrlər, prezidentlər bu prinsiplərin və elementlərin vahid təşkil etdiyini, onların bir-birindən ayrı nəzərdən keçirilməsinin mümkün olmadığını bildirirlər". Ermənistan prezidenti deyib ki, Azərbaycan münaqişənin dinc yolla nizamlanması prinsipini qəbul etmir, çünki bu prinsipdən həmişə "əgər" kateqoriyasında danışır.

"İkincisi, Azərbaycan öz müqəddəratını təyin etmə prinsipini qəbul etmir və ya öz bildiyi kimi qəbul edir. İndi onlar danışıqlar formatını dəyişməyə və ya danışıqları başqa müstəviyə keçirməyə çalışırlar. Məhz bu səbəbdən gərginlik yaradılır" - iddia edib işğalçı ölkənin prezidenti.

***

Danışıqların formatının dəyişdirilməsi məsələsi isə həqiqətən də var və rəsmi Bakı bu yöndə müəyyən təşəbbüskarlıqlara başlayıb. Əvvəla, ona görə ki, sülh danışıqlar işğalçı ölkənin maksimalist tələbləri üzündən illərdir ki, dalana girib və status-kvonun bu şərtlər daxilində dəyişməsinə, münaqişənin həllində tezliklə real irəliləyişin yaranacağına ümid qalmayıb.

İkinci yandan, aydındır ki, saxta genosidin yubiley törənindən, dünyadakı bir çox havadarından stimul alan, Avropa Parlamentinin, Roma Papasının məlum bəyanatlarından ruhlanan Ermənistan 24 apreldən sonra Qarabağ məsələsində daha radikal mövqeyə köklənəcək, bir az da ipə-sapa yatmaz mövqeyə köklənəcək. Onsuz da 20 ildən çoxdur münaqişənin həllində dönüş yarada bilməyən vasitəçilərin İrəvanın bir az da destruktiv mövqeyi ilə nəyəsə nail olacağını düşünmək əlbəttə ki, sadəlövhlük olardı.

Xatırladaq ki, ATƏT-in Minsk Qrupunun üç həmsədr dövlətindən ikisi - Fransa və Rusiyanın prezidentləri aprelin 24-də İrəvanda olub, "yubiley" mərasiminə qatılılar. Türkiyə baş naziri Əhməd Davudoğlu bu vəziyyətə münasibət bildirərkən haqlı olaraq qeyd edib ki, "həmsədr ölkədən ikisinin başçısının İrəvanda olması Minsk Qrupunun qərəzsiz olmadığını nümayiş etdirir".

***

Bu və digər amilləri nəzərə alan Azərbaycanın formatın dəyişdirilməsində maraqlı olması təbii və məntiqli deyilmi? Məntiqldir. Çünki status-kvonun dəyişməsində, problemin həllinin tezliklə tapılmasında ən çox məhz ərazisinin 20%-i işğal altında olan Azərbaycan maraqlıdır. Bu mənada Sərkisyanın ittihamları yumşaq desək, gözə kül üfürməkdir.

Bakını hərbi xərcləri artırmaqda, hərbi kvotaları aşıb sürətlə silahlanmada ittiham eləmək də belə vəziyyətdə absurdudur. Münaqişə ədalətli həllini tapana qədər Azərbaycan hərbi qüdrətini artırmaqda davam edəcək, əlverişli məqamda isə öz torpaqlarını güc yolu ilə azad edəcək. Hərbi ekspert Üzeyir Cəfərovun təbirincə desək, bu qədər silah sursatı Bakı vitrinə qoymaq üçün almayıb ki. Artıq Azərbaycan gecə şəraitində də hərbi təlimləri keçirməyə başlayıb ki, bu da təcavüzkara növbəti xəbərdarlıq mesajıdır...

***

Ümumiyyətlə, Azərbaycan fərqindədir ki, bəzi Qərb dövlətlərinin və beynəlxalq təşkilatlarının işğalçıya loyal münasibətinin, uydurma genosid məsələsində ona verdiyi dəstəyin nəticəsidir ki, təcavüzkarın ayağı yer tutmur. Bu bir nonsens, beynəlxalq hüququn, ədalətin zorlanmasıdır ki, Ermənistandan ilk növbədə qonşu ölkənin işğal elədiyi əraziləri boşaltmağı tələb etmək əvəzinə, onun "soyqırım" adlı yalançı dərdinə şərik çıxılır, təcavüzkar ölkəyə qucaq açılır.

Bu, elə işğalçıya qucaq açmaq, Dağlıq Qarabağın işğalına haqq qazandırmaq, "siz genoside məruz qalmısınız, sizə qonşunun torpaqlarını ələ keçirmək olar!" deməkdir. Bununla təcavüzkarın dili heç şübhəsiz daha da uzanacaq. "Genosid" qətnamələrindən sonra hansı üzlə Ermənistana "Azərbaycan torpaqlarından çıx!" deyəcəklər? Axı, özü cəmi 23 il öncə Xocalı soyqırımı törədən, Azərbaycan torpaqlarında etnik təmizləmə həyata keçirən, qonşusunun 20% ərazisini hələ də işğal altında saxlayan bir millətin dərdinə necə şərik olmaq, onun uydurma nağıllarına nə cür inanmaq olar?

Tutaq ki, Krımı işğal eləmiş Rusiyaya gücünüz çatmır. O zaman cırtdan Ermənistana niyə işğalçı deyib də yerində oturtmursunuz? Hər ikisi beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, öz qonşusunun ərazi bütövlüyünü tapdamayıbmı?

***

**Hələ bu azmış kimi, üstəlik, ermənilərin 100 illik yalanını sənədləşdirib Türkiyəyə, Türkiyə timsalında Azərbaycana qarşı ittiham aktına çevirmək nə demək bəs? Bunun ikili standart yanaşmadan başqa adı varsa, desinlər. Bu məsələdə nisbətən ədalət prinsipini gözləyən dövlət - üçüncü həmsədr ölkə kimi ABŞ oldu. O da müstəsna olaraq Türkiyə ilə xüsusi münasibətlər səbəbindən. Fəqət yetərlimi? Təəssüflər olsun ki, Amerikadan ötrü də Dağlıq Qarabağ problemi hələ ki prioritet məsələ deyil.**

# Müdafiə Nazirliyindən ermənilərin iddiasına sərt cavab

## "Biz düşməni haker hücumu ilə deyil, öz silahımızla cəzalandırırıq..."

**Erməni tərəfi Azərbaycanın Müdafiə Nazirliyini onların internet saytlarına haker hücumları təşkil edərək təxribat xarakterli materiallar yerləşdirməkdə, daha sonra həmin materiallara istinad edən KİV-lərimizi qeyri-peşəkarlıqda ittiham ediblər ("Trend"). Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib ki, nazirliyin ermənilərin iddia etdikləri məsələlərə heç bir aidiyyəti yoxdur:**


Vaqif Dərgahlı

"Biz belə işlərlə məşğul olmuruq. Müdafiə Nazirliyi erməni saytlarına heç bir haker hücumu təşkil etmir. Biz düşməni silahımızla cəzalandırırıq. Əksinə, ermənilər bizim saytlara qarşı intensiv haker hücumları təşkil edir və bunu etiraf da edirlər. Yeri gəlmişkən, ermənilər bir neçə gün bundan qabaq xəbər yaymışdılar ki, Azərbaycan tərəfi guya haker hücumunun həyata keçirməyi planlaşdırır. Amma özləri bu günlərdə Azərbaycan və Türkiyənin 300-ə yaxın saytına haker hücumu təşkil ediblər".

**Polkovnik Dərgahlı onu da qeyd edib ki, ermənilər KİV-lərdə Ermənistan ordusundakı neqativ hallar, cəbhədəki vəziyyət, eləcə də ordudakı itkilərlə bağlı məlumatları özləri yerləşdirirlər:** "Amma sonra ya qəsdən, ya da hərbi-siyasi rejimin müxtəlif yollarla təzyiqi altında bu məlumatları saytlardan çıxarırlar. Onlar vəziyyəti yalanla ört-basdır edərək situasiyanı başqa cür təqdim etməyə çalışırlar. Nəhayət, ermənilər özləri boyunlarına aldılar ki, həqiqətən bir neçə gün əvvəl partlayan avtomobil onlarındır. Əvvəl deyirdilər ki, vurulan helikopter də Ermənistana məxsus deyil, 6 nəfərin minaya düşüb ölməsini də boyunlarına almırdılar, snayperimizin iki nəfər erməni hərbçisini vurmasına dair video kadrların da həqiqiliyini qəbul etmirdilər. Amma sonra hamısı təsdiqləndi. Müdafiə naziri Seyran Ohanyanın Azərbaycana könüllü əsir düşən əsgərin ailəsinə problemlər yaratdığını gizlətməyə çalışırdılar, amma axırda yerli əhali özü ayağa qalxdı. Bundan əlavə, deyirdilər ki, azərbaycanlılar özləri öz kəndlərini atəşə tuturlar. Ona görə də ermənilərin bu yalanlarına uymaq lazım deyil. Biz artıq onların belə dezinformasiyalarına öyrəncəliyik və bu kimi hallara qarşı lazım olan bütün önləyici tədbirlərimizi də görmüşük. Ermənilərin həm cəbhədə, həm də informasiya məkanındakı bütün təxribatlarının qarşısını alacağıq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015

## Bakıda "avtoş"luq edən həkimə 30 sutka həbs verildi

**Bakıda avtoxuliqanlıq edən diş həkimi saxlanılıb. Bu barədə "Report"a Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən (BŞDYPİ) bildirilib. Belə ki, Pirallahı rayonu ərazisində yol polisləri dövlət qeydiyyat nişanı olmadan "Mercedes" markalı avtomobili idarə edən 1985-ci il təvəllüdlü Əliyev Əlisoltan Kamil oğluna "Saxla!" işarəsi veriblər.**

Amma sürücü polislərin bu əmrinə riayət etmədən avtoxuliqanlıq hərəkətləri edib və qaçmağa nail olub. Sonradan Pirallahı Rayon Polis Şöbəsinin əməkdaşları Ə.Əliyevi idarə etdiyi avtomobillə birgə saxlayıblar. Ə.Əliyev məhkəmənin qərarına əsasən İnzibati Xətalar Məcəlləsinin (İXM) 296-1.1 maddəsi ilə təqsirli bilinib, ona 30 gün inzibati həbs verilib. Qeyd edək ki, Ə.Əliyev ixtisasca diş həkimidir və Bakının Nizami rayonunda stomatoloji klinikada işləyir.

## Qızı bıçaqla hədələyib tanış olmaq istədi

**Bakıda oğlan qızla tanış olmaq üçün qeyri-adi üsula əl atıb. "Qafqazinfo"nun verdiyi xəbərə görə, o qıza bıçaqla hədə-qorxu gələrək telefon nömrəsini istəyib. Bakı sakini 1990-cı il təvəllüdlü Sona Məmmədova polisə şikayət edərək bildirib ki, Xətai rayonu ərazisində tanımadığı oğlan tanış olmaq məqsədi ilə bıçaqla hədə-qorxu gələrək ondan mobil teıefonunun nömrəsini alıb.**

Əməliyyat tədbirləri nəticəsində hadisəni törədən şəxs müəyyən olunub. Bakı sakini 1991-ci il təvəllüdlü Kənan Həbibli saxlanılıb. Onun ifadəsi alındıqdan sonra sərbəst buraxılıb.

## Məktəbdə yanğın: şagirdlər təxliyə edildi

**Bakıda məktəbdə yanğın baş verib. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Bakı şəhər, Sabunçu rayonunda Təhsil Nazirliyinə məxsus, ümumi sahəsi 5202 kv.m olan üçmərtəbəli orta məktəbin hər mərtəbəsinin dəhlizində quraşdırılan 3 ədəd elektrik lövhəsi yanıb. Yanğın zamanı 20 nəfər şagird yanğınsöndürənlər tərəfindən təxliyə olunub. Məktəb binasının qalan hissəsi yanğından mühafizə olunub.**

## Bakıda 42 yaşlı kişi özünü bıçaqlayıb öldürdü

**Bakıda intihar hadisəsi baş verib. Xəzər Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Buzovna qəsəbəsi, Albalılıq yaşayış sahəsində, Mustafayev küçəsi döngə 7, ev 2 ünvanında qeydə alınıb.**

Bakı şəhər sakini, 1973-cü il təvəllüdlü Emin Vaqif oğlu Rzayev özünü bıçaqlayaraq intihar edib.

Faktla bağlı araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## Goranboyda bir ailəni məhv edən şəxsə ömürlük həbs verildi

**Gəncə Ağır Cinayətlər Məhkəməsində bir ailənin 7 üzvünü qətlə yetirməkdə təqsirləndirilən Rafiq Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. APA-nın məlumatına görə, hakim Zabil Qasımovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, R. Hüseynov ömürlük olaraq azadlıqdan məhrum olunub.**

Qeyd edək ki, ötən il oktyabrın 1-də Goranboy rayonunun Səfikürd kəndində Diləzbər Məmmədovanın yaşadığı evə gələn kürəkəni Rafiq Hüseynov ailə-məişət münaqişəsi zəminində ov tüfəngindən və əl qumbarasından istifadə edərək arvadı Südabəni, qaynı Namiqi, qohumları Ofelya Məmmədovanı, Həvayət Məmmədovanı, Fərqanə Məmmədovanı və azyaşlı İsa Məmmədovu, habelə Diləzbəri qətlə yetirib.

R.Hüseynov könüllü olaraq Goranboy Rayon Polis Şöbəsinə gəlib və hadisəni törədərkən istifadə etdiyi ov tüfəngini təhvil verib.

O, Azərbaycan Cinayət Məcəlləsinin 120.2.4-cü (qəsdən adam öldürmə - xüsusi amansızlıqla və ümumi təhlükəli üsulla törədildikdə) və 120.2.2-ci (xuliqanlıq niyyəti ilə adam öldürmə) maddələri ilə ittiham olunur.

Onu da qeyd edək ki, hadisədən bir müddət sonra Rafiq Hüseynovun qardaşı, 1984-cü il təvəllüdlü Afiq Hüseynov özünü asaraq intihar edib. Bu mənzərəni görən A.Hüseynovun atası Müzəffər Hüseynov isə infarkt keçirərək ölüb.

## Bakıda 30 yaşlı qadın itkin düşüb

**Bakı sakini itkin düşüb. Yasamal Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini, Anar Rafiq oğlu Məmmədov polisə ərizə ilə müraciət edərək bildirib ki, həyat yoldaşı, Bakı şəhər sakini, 1985-ci il təvəllüdlü Günel Məzahir qızı Muradova aprelin 22-də Şıxəli Qurbanov küçəsi 6/10 ünvanında yerləşən 18 saylı məktəbə övladlarını aparıb və bir daha geri qayıtmayıb.**

Hazırda polis itkin düşən şəxsin tapılması istiqamətində iş aparır.

## Özünü DİN əməkdaşı kimi qələmə verən şəxs məsuliyyətə cəlb edildi

**Özünü polis əməkdaşı kimi təqdim edən şəxsin qanunsuz əməlləri ifşa edilib. Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmini sahəsində korrupsiyaya qarşı mübarizə tədbirləri davam etdirilir.**

Belə ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətindən daxil olmuş material üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılmış araşdırmalarla Yevlax rayon sakini Həsən Əliyevin özünü Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının məsul əməkdaşı kimi təqdim edərək Ağdaş rayon sakininin övladını Penitensiar Xidmətin Şəki penitensiar müəssisəsinə işə qəbul etdirəcəyini vəd edərək 4 min 500 manat məbləğində pulunu etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirməsində şübhələr üçün əsaslar müəyyən edil-

### Başqağlığı

**D.Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin sədri Novella Cəfərova və bütün kollektiv Tofiq Yaqubluya, ailə üzvlərinə əzizləri Nərgiz Yaqublunun vəfəatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


## 180 min manatlıq dələduzluq edən şəxs tutuldu

**Bakıda axtarışda olan şəxs tutulub. Xətai Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq, külli miqdarda törədildikdə) maddəsi ilə axtarışda olan Cəlilabad rayon sakini, 1977-ci il təvəllüdlü Elşən Xudabaxış oğlu Quliyev tutulub. E.Quliyev ilkin ifadəsində bizneslə məşğul olduğunu və 180 min manat miqdarında dələduzluq etdiyini bildirib.**

## 2 il əvvəl itkin düşən şəxs axtarışa verildi

**Bakıda 28 yaşlı qadın itkin düşüb. Xətai Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini, Jalə Seyfulla qızı Babayeva polisə ərizə ilə müraciət edərək bildirib ki, bacısı Gülşən 2013-cü ildə yaşadığı Babək prospekti ev 72 mənzil 83 ünvanından çıxıb və bir daha geri qayıtmayıb. Hazırda polis itkin düşən şəxsin tapılması istiqamətində iş aparır.**

Azercell

## «Azercell»in xanım nümayəndəsi beynəlxalq konfransda İKT-nin qadınların həyatındakı rolunu vurğuladı




**Aprelin 23-də qlobal səviyyədə Beynəlxalq Telekommunikasiya İttifaqının 150 illiyinə həsr edilmiş tədbirlər çərçivəsində "İKT-də xanımlar günü" (Girls in ICT Day") Azərbaycanda qeyd olunub. Bu gün münasibətilə "İKT-nin qadınların həyatındakı rolu" mövzusunda ADA Universitetində konfrans keçirilib. Rabitə və Yüksək Texnologiyalar Nazirinin müavini İltimas Məmmədovun da iştirak etdiyi konfrans "Femmes Digitales - Azərbaycan İKT xanımları klubunun" təşkilatçılığı ilə baş tutub. Qeyd edək ki, "Bakutel 2014" sərgi-konfransı çərçivəsində "Femmes Digitales - Azərbaycan İKT xanımları klubu" yaradılıb və bu qurumun əsas məqsədi xanımların İKT sahəsinə cəlb edilməsi ilə bağlı qlobal məqsədlərin Azərbaycanda reallaşmasına dəstək olmaqdır. Qadınların İKT sektorunda iştirak səviyyəsinin yüksəldilməsini hədəfləməklə, konfransın keçirilməsində məqsəd Azərbaycanda İKT sektorunun qadınların işlə təmin olunmasında uzunmüddətli perspektivlər vəd etdiyinə dair məlumatlılığın artırılması, milli səviyyədə rəqəmsal iş yerlərinin yaradılmasını hədəfləyərək dövlət və özəl sektorları arasında səmərəli əməkdaşlığın dəstəklənməsi və iştirakçılar arasında təcrübə mübadiləsinin həyata keçirilməsidir. ADA Universitetində baş tutan konfransda Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin, ATƏT-in, ADA Universitetinin, Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM), Azərbaycan İKT Xanımları Klubunun nümayəndələri iştirak edib. «Azercell» Telekom MMC-ni bu konfransda şirkətin Texnologiyalar departamentinin Transmissiya şəbəkəsi bölümünün rəhbəri və Proseslərin İnkişafı üzrə konsultant vəzifələrində çalışan, bundan öncə «Azercell»-in Texnologiyalar Departamentinin direktoru vəzifəsini icra edən əməkdar mühəndis Xavər Babazadə təmsil edib. Xavər Babazadə konfransda "İKT-də qadınların rolu" mövzusunda çıxış edib. Məlumat üçün bildirək ki, «Azercell»də 3G, 4G şəbəkələrinin qurulması, metro stansiyalarında «Azercell» abunəçilərinin danışa bilməsi, Eurovision-2012 tədbiri boyu kəsintisiz şəbəkənin təmin edilməsi məhz bu xanımın rəhbərliyi altında aparılan işlərin nəticəsində mümkün olub. Xavər Babazadə çıxışında getdikcə daha çox xanım mütəxəssislərin İKT sahəsinə cəlb edilməsinin əhəmiyyətini vurğulayıb.**

**Qabaqcıl Texnologiyalar sahəsində daim öncül olan «Azercell» Telekom ölkəmizdə bu sahədə ekspert kadrların yetişdirilməsinə hər zaman dəstək olub. Ölkəmizdə İKT istiqamətində öz nailiyyətləri ilə tanınan əməkdar mühəndis Xavər Babazadənin «Azercell»də keçdiyi karyera tarixçəsi xanımların bu sahədə uğur qazanmasına ən gözəl nümunə olmaqda davam edir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

YENİ MÜSAVAT
N 88 (6116) 25 aprel 2015

# Hegemon dövlətlərin boğaz davası

**Hazırda daxili müharibənin və xaricdən hava zərbələrinin davam etdiyi Yəmən dünyanın diqqət mərkəzində olan əsas ölkələrindən biridir. Əlbəttə, ərəb yarımadasının cənubunda yerləşən, o qədər də (qonşuları ilə müqayisədə) zəngin enerji ehtiyatlarına sahib olmayan kasıb, 25 milyon əhalisi olan Yəmən uğurunda faktiki olaraq dünya gücləri arasında gərginlik yaranıb. Regionun 9 ərəb dövləti Yəmənə hava hücumları təşkil edir, ABŞ, Fransa və digər qlobal güclər bu hərbi müdaxiləni dəstəkləyir.**

## Dənizləri okeanlarla birləşdirən su keçid məntəqələri, körfəzlər tarix boyu ölüm-dirim savaşlarına səbəb olub; bu gün Yəmənin başına gələnlər də bununla bağlıdı

**Yəmənə qarşı bu marağın və həssaslığın arxasındakı səbəb yalnız bu ölkədə hansı qüvvənin hakimiyyətə gələcəyi və ya hakimiyyəti ələ keçirəcək qüvvənin hansı islam cərəyanına mənsub olması ilə bağlı deyil. İşin içində daha ciddi səbəblər var.** Təbii ki, Yəməndə kimin hakimiyyətdə olması bu regionun digər dövlətləri, o cümlədən Səudiyyə Ərəbistanı, BƏƏ, Misir və digər dövlətlər üçün mühümdür. Ancaq Yəməni qlobal siyasətdə önəmli edən daha bir faktor onun yerləşdiyi coğrafi mövqe, daha dəqiqi Ədən körfəzindən Qırmızı dənizə keçiddə yerləşən Bab əl-Məndəb boğazıdır. Aralıq dənizinə çıxan bütün tankerlər, o cümlədən böyük həcmdə neft-qaz yükləri burdan keçir. 32 kilometr uzunluğunda olan boğazın bir tərəfində Yəmən, digər tərəfində isə Somali sahilləri - Cibuti yerləşir. Strateji olaraq boğazda əsas önəm daşıyan Perim adası Yəmənə məxsusdur. Uzaq Şərq, Cənub-Şərqi Asiya ölkələri, Avstraliya, Hindistan və Bəsrə körfəzindən gələn yüklər deniz vasitəsilə məhz Bab əl-Məndəb boğazından keçməklə Süveyş kanalı vasitəsilə Aralıq dənizinə çıxır. Ümumilikdə dünya ticarətinin 65 faizinin məhz bu boğazdan keçdiyi ehtimal olunur. Boğazda keçdin dayandırılması dünya ticarətinə, yük daşımalara və ən əsası neft qiymətlərinə ciddi şəkildə təsir edə bilər. Hətta bir qədər əvvəl Yəməndə husi üsyançıları boğaz kənarına raket batareyaları yerləşdirdiklərini və hərbi müdaxilə olacağı təqdirdə Bab əl-Məndəb boğazından keçən tankerləri vurmaqla hədələmişdilər.

Ancaq dünyada böyük müharibələrə səbəb olan və ya münaqişələrin mərkəzinə çıxan yalnız Bab əl-Məndəb boğazı deyil. 2000-ci illərin əvvəllərində İran və Qərb arasında münasibətlər kəskinləşib müharibə vəziyyətinə çatanda İran hökuməti Hörmüz boğazını bağlayacağı ilə hədələdi. Hətta bu hədənin təsiri dünya bazarında neftin qiymətlərinə ciddi təsir etmişdi.

**Oman körfəzi ilə Fars körfəzi arasında yerləşən Hörmüz boğazının eni 54 km-dir.** Bu hissə dayaz olduğu üçün ərazidə batan bir və ya bir neçə gəmi boğazın bağlanmasına səbəb ola bilər. Bu səbəbdən Hörmüz boğazı dünyanın ən həssas boğazı hesab olunur. İran-İraq və 1991-ci il Körfəz savaşının əsas hədəflərindən biri də məhz Hörmüz boğazına sahiblənmək olub. Hazırda dünyanın ən əhəmiyyətli enerji daşınması nöqtəsi hesab olunur. Körfəz ölkələrinin neftinin 90 faizi Hörmüz boğazından ixrac olunur. 2000-ci illərdə Hörmüz boğazından gündəlik olaraq 17 milyon barel neft daşınıb. Bu isə dənizdə daşınan neftin 35 faizi, ümumilikdə isə neft ticarətinin 20 faizi deməkdir. Bundan başqa Çin və Yaponiyadan Yaxın Şərq ölkələrinə idxal olunan məhsulların 60 faizdən çoxu məhz bu boğazdan keçir. Bu rəqəmlər pula çevrildikdə böyük, hətta fantastik rəqəmlər alınır.




**Dünyanın daha bir mühüm boğazı Aralıq dənizi ilə Atlantik okeanını birləşdirən Cəbəllütariq boğazıdır.** Cəbəllütariq boğazının uzunluğu 60 km, eni 14-45 km, maksimum dərinliyi 324 metrdir. Cəbəllütariq boğazı dünyanın mühüm keçid nöqtələrindən biri hesab olunur. İl ərzində boğazdan təxminən 7000-7500 arası əsasən yük gəmiləri keçir. Daha əvvəl İspaniyanın, uzun müddət və hal-hazırda Britaniyanın nüfuz dairəsində olan Cəbəllütariq bir neçə dəfə dövlətlər arasında münaqişələrə səbəb olub. Hazırda Mərakeş və İspaniya arasında hələ də Leyla adası məsələsində gərginlik mövcuddur. Mərakeş sahillərindən 250 metr məsafədə olan Leyla adasına İspaniya da iddia edir.

**Hazırda dünya ticarətində mühüm əhəmiyyət daşımasa da, İstanbul boğazı bir zamanlar qanlı müharibələrə səbəb olub.** Asiyadan Avropaya ticarət yolunun üzərində yerləşən İstanbul tarixi ticarət yolu olmaqla yanaşı Aralıq dənizindən Qara dənizə mühüm keçid nöqtəsi hesab olunur. Ümumilikdə Qara və Aralıq - Mərmərə dənizindən keçməklə - dənizlərini birləşdirən dəniz yolunda iki boğaz var. Birincisi, Qara və Mərmərə dənizini birləşdirən İstanbul boğazı, ikincisi isə Egey və Mərmərə dənizini birləşdirir Çanaqqala boğazı (Dardanel). İstanbulu Avropa və Asiya sahillərindən ayıran eyni adlı boğazın uzunluğu 30 km-dir. Ancaq müxtəlif istiqamətlərdə və sahillərin dəyişməsi ilə bu məsafə dəyişə bilir. İstanbul boğazının ən enli yeri 3600 metr, ən dar sahili isə 760 metrdir. Ən dərin hissəsi isə 120 metrdir.

**Çanaqqala boğazının uzunluğu 65 km, ən dar sahili isə 1250 metrdir.** Ən dərin hissəsi isə 106 metr təşkil edir. İstanbul boğazına sahib olmaq uğurunda tarix boyu bir çox dövlətlər arasında savaşlar baş verib. Son olaraq "soyuq müharibə" dönəmində SSRİ ilə Türkiyə arasında İstanbul boğazı məsələsində qısamüddətli böhran yaşanıb. SSRİ yük gəmilərinin boğazlarda sərbəst keçməsi üçün Türkiyəyə təzyiq edib. Ancaq Türkiyə hökumətinin sovet gəmilərinə bu hüququ tanıması iki dövlət arasında gərginliyə səbəb olub. Həmin vaxt Türkiyə dəstək üçün Qərbə üz tutub və daha sonra bu məsələ beynəlxalq razılaşmanın imzalanması ilə həllini tapıb.

**Çanaqqalada 100 il əvvəl Antanta ölkələrinin böyük bir ordusu Almaniyanın müttəfiqi kimi Birinci Dünya savaşına qatılmış Osmanlı dövlətini məğlub etmək üçün həyata keçirdiyi böyük bir savaş baş verib.** Müttəfiq dövlətlərin kəskin hücumlarına baxmayaraq Osmanlı ordusu böyük qəhrəmanlıq göstərərək Çanaqqalada müttəfiq ordularının hücumunu dayandırıb. 400 min nəfərdən artıq insanın ölümünə səbəb olan Çanaqqala savaşı dünya hərb tarixinin ən böyük hücum əməliyyatlarından biri hesab olunur. Türk dünyası üçün böyük bir qəhrəmanlıq dastanının baş verdiyi yer hesab olunur.

**Dünyanın daha bir kilid su keçid bölgəsi heç şübhəsiz ki, Süveyş kanalıdır.** Aralıq və Qırmızı dənizlərini birləşdirən 163 km uzunluğunda Süveyş kanalı 1859-69-cu illərdə inşa olunub. Kanal Misir ərazisində yerləşir. Kanal 70-125 metr enliyindədir. İl ərzində kanaldan təxminən 17 min gəmi keçir. Dünya dəniz nəqliyyatının 8 faizinin bu kanaldan keçdiyi güman olunur.

**Bundan başqa dünyada mühüm əhəmiyyət kəsb edən daha bir kanal Panama kanalıdır.** 1914-cü ildə istifadəyə verilən Panama kanalının uzunluğu 77 km-dir. Hər il təxminən 14 min gəmi Panama kanalından keçməklə Atlantik okeanından Sakit okeana və ya əksinə keçid edə bilir. İl ərzində təxminən 203 milyon ton yük daşınan kanal dünya dəniz nəqliyyatının ən böyük keçidlərindən biridir. Panama kanalı eyni adlı dövlətin ərazisində yerləşir və bu kanala qarşı iddialar olmasa da, məhz strateji önəmi səbəbindən bu ölkə uzun illər qeyri-sabitlik dönəmini yaşayıb.

**Bundan başqa Sakit və Şimal Buzlu Okeanını, yəni Asiya və Amerika qitələrini birləşdirən Berinq boğazı, Cənubi Amerikada Atlantik və Sakit okeanlarını birləşdirən Magellan boğazı, həmçinin Malayziya yarımadası və Sumqatra adası arasında yerləşən Malakka boğazı, İngiltərə ilə Avropa qitəsini ayıran Dover boğazı, Baltik dənizində yerləşən Kiel limanı dünyanın hələ də böyük önəm daşıyan boğazlarıdır.**

❑ **KƏNAN**

# Yeni tikinti qaydaları necə olacaq?

## **Ramil Osmanlı:** "İkimərtəbəli ev hər mərtəbəsinin hündürlüyü 3 metr, tikinti sahəsi isə 1000 kvadratmetrdən çox olmamaq şərtilə tikilməlidir"

**Şəhərsalma və Tikinti Məcəlləsinə edilən dəyişikliklərlə Azərbaycanda tikintiyə icazə verilməsinin ümumi qaydaları sadələşdiriləcək. Milli Məclisin aprelin 28-də keçiriləcək plenar iclasının gündəliyində sözügedən məcəlləyə dəyişikliklər edilməsi də nəzərdə tutulur.**

Məcəllənin 75.4 maddəsinə təklif edilən dəyişikliyə əsasən isə tikintiyə dair sənədlərin tamlığı təmin edildikdən sonra müvafiq icra hakimiyyəti orqanı tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan və müvafiq icra hakimiyyəti orqanı tərəfindən tikintinin təyinatına uyğun olaraq müəyyən edilən aidiyyəti qurumlara rəy bildirilməsi üçün göndərilən sorğuya cavab verilmə müddəti 1 aydan 15 günə qədər azaldılır.

Məcəllənin 75.6-cı maddəsinə edilən dəyişikliyə əsasən isə müvafiq icra hakimiyyəti orqanı tikintiyə dair ərizəyə həmin ərazi üzrə müfəssəl plan olduqda 1 ay müddətində, belə plan olmadıqda və ya onun müddəti bitdikdə 3 ay müddətində baxır və qərar qəbul edir.

Hazırkı məcəllənin həmin maddəsində isə qeyd olunur ki, müvafiq icra hakimiyyəti orqanı tikintiyə dair ərizəyə 3 ay ərzində baxır və qərar qəbul edir.

Həmçinin məcəlləyə məlumatlandırma icraatı ilə bağlı əlavənin edilməsi təklif olunur. Təklif edilən əlavəyə görə, insanların yaşaması və toplaşması, habelə istehsalat fəaliyyətinin həyata keçirilməsi üçün nəzərdə tutulmayan yerüstü mərtəbələrin sayı ikidən, hər mərtəbəsinin hündürlüyü 3 metrdən, ümumi sahəsi 1400 kvadratmetrdən və tikinti sahəsi 1000 kvadratmetrdən çox olmayan tikinti obyektlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və tikinti layihəsinin yalnız memarlıq-planlaşdırma bölməsinin hazırlanması tələb olunur. Hazırkı məcəllədə isə mərtəbələrin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırmalarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir.



Şəhərsalma və Tikinti Məcəlləsinə ediləcək dəyişiklikləri dəyərləndirən **əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı** "Yeni Müsavat"a açıqlamasında da bildirib ki, bu düzəlişləri tikintiyə icazə alınması ilə bağlı prosedurları sadələşdirəcək: "Şəhərsalma və Tikinti Məcəlləsinin 74.4 maddəsi ilə məlumatlandırma icraatında, yeni müvafiq icra hakimiyyətinə verilən müraciətə 1 ay müddətində cavab verilməli idisə, indi həmin cavab 15 günə qədər azaldılıb. 74.6-cı maddədə isə deyilir ki, əgər ərazinin müfəssəl planı varsa, 1 ay müddətinə, yoxdursa 3 ay müddətinə müraciətə cavab verilməlidir. Əgər müraciətə cavab verilməzsə, yeni qaydaya görə məlumatlandırma icraatı qəbul olunmuş hesab olunur və tikintiyə başlamaq olar. Tikintinin ölçüləri məsələsi də gündəmdədir. İki mərtəbəli ev hər mərtəbəsinin hündürlüyü 3 metr, ümumi sahəsinin ölçüsü 1400 kvadratmetr, tikinti sahəsi isə 1000 kvadratmetrdən çox olmamaq şərtilə tikilməlidir. Ancaq onu da deyim ki, bu məsələ mənim özümə də tam aydın deyil. Əvvəlki məcəllədə 12 metr şərti var idi ki, hündürlüyü 12 metrə qədər olan tikililər məlumatlandırma icraatına daxil idi. Hazırda bu müddəa qüvvədə qalır, yoxsa yox bunu dəqiq bilmirəm".

**Ekspert bildirdi ki, bu dəyişiklik fərdi yaşayış evləri ilə yanaşı kiçik ölçülü obyektlərə də aiddir. Əvvəllər kiçik ölçülü obyektlərin tikintisi üçün icazə alınmalı idi. İndi isə bu məlumatlandırma icraatına daxildir. Yəni sadəcə xəbərdarlıq etməklə tikintiyə başlamaq mümkündür. Əvvəlləri kiçik ölçülü tikililərin sahibləri xeyli sənəd toplamalı olurdu. İndi artıq məlumatlandırma icraatı qaydasında tikintiyə icazə veriləcək. Burada önəmli olan məlumatlandırma icraatı qaydasında vaxtın tezləşdirilməsi və prosedur qaydalarının sadələşdirilməsi məsələsidir.**

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 88 (6116) 25 aprel 2015



# Şokolad qoxulamaq aparatı varlandırdı

Dominique Persoone adlı Belçikalı vətəndaş icad etdiyi şokolad qoxulama aparatının köməyi ilə 1 milyon 250 min dollar qazanıb. Yeni icad etdiyi aparatı 50 dollardan satan belçikalı bu nəticəni gözləmədiyini deyib. Persoonenin onu varlandıran aparatı kəşf etmə hekayəsi də olduqca maraqlıdır. Babasının burnuna şokolad yağı çəkdiyini xatırlayan kişi bu işin cihazını hazırlamağa qərar verib. Bu fikri yaxınları ilə paylaşdığı zaman sərt reaksiyalarla üzləşib. Hər kəs onun ağlını itirdiyini və belə bir cihazın heç kəsə lazım olmadığını deyib. Persoone deyilənləri dinləməyərək şokolad qoxulamaq üçün cihaz hazırlayıb. Yanına isə içərisində nanə və zəncəfil olan şokolad tozu qoyub. Bu tozu qoxulayan hər kəs qısa müddət də olsa özünü xoşbəxt hiss edib. Yeni cihazı alan hər kəs ondan daha çox sifariş etməyə başlayıb. İnternet üzərindən satışa başlayan Persoone 3 ayda 25 min ədəd cihaz satıb. O, indi bu cihazın milyonlarla insan tərəfindən alınacağını gümən edir.

# "Dayanın, siz qardaş-bacısınız"

Hollandiyada bir saytda sevgili olmaq üçün tanış olan iki gənc sürprizlə qarşılaşıb. Onlar bir müddət yazışdıqdan sonra qardaş-bacı olduqlarını anlayıblar. Məlumatlara görə, 1999-cu ildə Erik de Vries və Josefin Egbesrtin valideynləri boşanıblar. Ata Erik və digər oğlu martenlə birlikdə Belçikaya köçüb. Josefin isə anası birlikdə Hollandiyada qalıb. Erik, 16 il sonra Hollandiyaya qayıtdığı zaman tanışlıq proqramı olan Tinderə üzv olub. Bacısı olduğunu bilmədiyi Jozefinin şəklini bəyənərək onunla yazışmağa başlayıb. Bir müddət yazışdıqdan sonra Erik Josefinin bacısı olduğundan şübhələnməyə başlayıb. "NL Times" qəzetinə müsahibə verən Erik bir kafedə oturub uzun-uzun danışdıqdan sonra bir-birlərini daha yaxşı tanıdıqlarını deyiblər. Onlar digər qardaşları Martenlə də tez-tez görüşəcəklərini açıqlayıblar.



# Ən çox oğurlanan maşın BMW X6

"Focus" jurnalının apardığı araşdırmalardan sonra məlum olub ki, ən çox oğurlanan maşın BMW X6-dır. Lakin "Audi" markalı maşınları sahibləri daha çox qorxu içindədir. Hər iki "Audi" sahibindən biri maşınını oğurlanacağından qorxur. "Audi" sahiblərinin 46%-i, "Toyota" sahiblərinin 44,8%-i, "Peugeota" sahiblərinin 43,7%-i, "Mercedes" sahiblərinin 39%-i, BMW sahiblərinin isə 36,8%-i maşınının oğurlanmasından qorxur. "Fiat", "Ford" və "Renault" markalı maşınlar isə ən az oğurlanma riski daşıyan maşınlardır. Statistik məlumatlara görə, BMW X6 markalı maşınlar ən çox və sevərək oğurlanan maşınlar arasındadır. Oğurlanan digər maşınların siyahısı isə belədir:

1) "BMW X6"
2) "Lexus RX" 350
3) "BMW X5"
4) "BMW M3"
5) "Range Rover Sport"
6) "Toyota Land Cruise"
7) "Audi S4"
8) "VW Minibüs T4"
9) "VW Minübüs T5"
10) "BMW 3 serisi" (335d)



# 100 dəqiqə yaşadı, amma həyat qurtardı...

İngiltərədə tibb tarixində iz qoyan hadisə yaşanıb. Cəmi 100 dəqiqə yaşayan körpə bir həyatı xilas edib və beləcə ölkənin ən kiçik orqan bağışlayan sakini oldu. Teddi adlı körpə öldükdən sonra böyrəkləri ilə bir insana həyat verdi. Əkiz uşaqlarından birini doğulduqdan 100 dəqiqə sonra itirən ana-ata, əslində Teddinin çox yaşamayacağını bilirdi. Çünki hələ ana bətnində olarkən Teddiyə ölümcül xəstəlik diaqnozu qoyulmuşdu. Amma Cess Evans sadəcə on dəqiqə, bir saat, ya da bir günlüyə də olsa oğlu ilə tanış olmaq istədiyini söyləyərək abortdan imtina etdi. Teddinin anası və atası 100 dəqiqəlik ömür yaşamış kiçik oğullarının bir həyat qurtarmasından böyük qürur duyurlar: "O bir qəhrəman kimi yaşadı və öldü. Onunla fəxr etmək duyduğumuzu sözlə ifadə etmək imkansızdır".

Teddinin əkizi isə yaşayır və sağlamdır. Ailə Teddinin itkisini onunla təsəlli tapır.




QOÇ - Hələ ki, mövcud durumunuz Göy qübbəsini qane edir. Əsası odur ki, hər hansı xoşagəlməzlik baş verməyəcək. Bu gün şəxsi işlərinizdə əsaslı dönüş etmək üçün aktivləşməlisiniz.

BUĞA - Atdığınız hər bir addımın məsuliyyətini hiss edin. Bu, çıxaracağınız qərarların icrasında sizə böyük dəstək ola bilər. Əks təqdirdə gün ərzində müvəffəqiyyətə yetişə bilməyəcəksiniz.

ƏKİZLƏR - Maraqlı görüşlər yolunuzu gözləyir. Ola bilsin ki, yeni təkliflər də alasınız. Axşam təmiz havada gəzinməyiniz sağlamlığınıza xeyir gətirə bilər. Büdcənizdə artım mümkündür.

XƏRÇƏNG - Sevgi dolu bir gün yaşayacaqsınız. Yaxın adamların sizi başa düşməsi, o cümlədən səhvlərinizi bağışlaması ürəyinizcə olacaq. Nəzərdə tutmusunuzsa, nahardan sonra səfərə çıxın.

ŞİR - Nədənsə bu ərəfələr sizin üçün o qədər də ürəkaçan keçmir. Bu səbəbdən də riskli və qeyri-adi hərəkətlərə yol verməməlisiniz. Qonaq getmək, gəzintiyə çıxmaq çox səmərəlidir.

QIZ - İşlə özünüzü çox yormayın. Ulduzlar daha çox istirahətə yer ayırmağınızı tövsiyə edir. Saat 16-dan sonra yaxınlarınızla aranızda yaranmış anlaşılmazlıqlara aydınlıq gətirməyə çalışın.

TƏRƏZİ - Nahara qədər ümumi vəziyyətiniz qənaətbəxş olacaq. Nəzərdə tutduğunuz işlərin bir çoxunu gerçəkləşdirəcəksiniz. Sonrakı vaxtınızı isə daha çox sizi anlayan insanlarla keçirin.

ƏQRƏB - Sevgi amilinə daha böyük diqqət yetirin. Çünki iş gəldi-gedər olsa da, bu hisslər ilahidən gəldiyi üçün əbədidir. Gün ərzində sizə yaxın olanlarla mübahisələrdən yayının.

OXATAN - Ailə üzvlərinizlə davranışlarda nəzakətli olun. Məhz belə olduqda özünüzə qarşı rəğbət oyada bilərsiniz. "Yalnız mən haqlıyam" ifadəsini tərgidin. İş günü olsa da, istirahətə vaxt ayırın.

OĞLAQ - Hər mənada uğurlu gün yaşayacaqsınız. Ulduzlar bəxtinizin gətirəcəyini bəyan edir. Təzə xəbərlər də eşidəcəksiniz. Amma həmkarlarınızla təmkinli davranın ki, işdə passivlik yaranmasın.

SUTÖKƏN - Bir qədər mübahisəli ərəfədir. Daimi ünsiyyətdə olduğunuz adamlarla, ələlxüsus da həmkarlarınızla xoşagəlməz situasiyalara cəlb oluna bilərsiniz. Bələd olmadığınız ünvanlara getməyin.

BALIQLAR - Astroloji göstəricilərə görə bu gün əməkdaşlıq zəminində uğurlarınız böyük olacaq. Aldığınız təkliflərin perspektivlərinə inanırsınızsa, imtina etməyin. Varlanmaq şansınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 40 il sonra təslim oldu



Uzun illər qanundan qaçan amerikalı kişi 40 il sonra polislərə təslim olub. 1967-ci ildə Amerikanın Karolina ştatında oğurluq edən və həbs cəzası olan Klarense Moore 9 il həbsdə qaldıqdan sonra 1976-cı ildə oradan qaçıb. Təxminən 40 ildir axtarışda olan və qaçan bir həyat keçirən 66 yaşlı kişi yaşlılıqla bağlı səhhətində problemlər olduğu üçün təslim olmağa qərar verib. 40 ildir qanundan qaçan kişi təslim olduqdan sonra xəstəxanaya yerləşdirilib. Müalicə üçün dövlətə sığınan yaşlı kişi fərarı olduğu üçün xəstəxanalara da gedə bilməyib. 66 yaşlı kişi məhkəməyə çıxdıqdan sonra onun haqqında qərar veriləcək.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300